**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin**

# QƏRARI

**№ 35/2**

**Bakı şəhəri** **“4” sentyabr 2024-cü il**

**“Ödəniş statistikası hesabatının tərtibi və təqdim edilməsinə dair Təlimat”ın təsdiq edilməsi barədə**

Elektron ödənişlər sahəsində tənzimləmə və nəzarətin təşkilində effektivliyin yüksəldilməsi, habelə elektron ödənişlərin inkişafı üzrə məlumat bazasının və analitik təhlil imkanlarının genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.1.17-ci və 63-cü maddələrinə əsasən

**Q Ə R A R A A L I R:**

1. “Ödəniş statistikası hesabatının tərtibi və təqdim edilməsinə dair Təlimat” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş “Ödəniş statistikası hesabatının tərtibi və təqdim edilməsinə dair Təlimat” 2025-ci il yanvarın 1-dən qüvvəyə minsin və həmin tarixdən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin “Ödəniş statistikası hesabatının tərtibi və təqdim edilməsi haqqında Təlimat”ın təsdiq edilməsi barədə” 2021-ci il 31 may tarixli 15/2 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

3. Maliyyə bazarlarının hüquqi təminatı departamentinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**

“Təsdiq edilmişdir”
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 35/2

4 sentyabr 2024-cü il

**Ödəniş statistikası hesabatının tərtibi və təqdim edilməsinə dair**

# Təlimat

## 1. Ümumi müddəalar

1.1. Bu Təlimat “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikası Qanununun 63-cü maddəsinə əsasən hazırlanmışdır və ödəniş statistikası hesabatının tərtibi və təqdim olunması qaydasını tənzimləyir.

1.2. Ödəniş statistikası hesabatı bankların, xarici bankların yerli filiallarının və poçt rabitəsinin milli operatorunun (bundan sonra – banklar), ödəniş təşkilatlarının və elektron pul təşkilatlarının, xarici ödəniş təşkilatları və elektron pul təşkilatlarının yerli filiallarının (bundan sonra – qeyri-bank ödəniş xidməti təchizatçıları), ödəniş sistemi operatorlarının və xarici ödəniş sistemi operatorlarının yerli filiallarının (bundan sonra – operatorlar), bank olmayan kredit təşkilatlarının və xarici bank olmayan kredit təşkilatlarının yerli filiallarının (bundan sonra – BOKT-lər) qanunvericiliyə uyğun olaraq xidmət etdiyi ödəniş hesabları və emissiya etdiyi ödəniş alətləri, o cümlədən elektron pullar vasitəsilə aparılan ödəniş əməliyyatları, ölkədaxili və ölkəxarici ödəniş əməliyyatları, ödəniş xidməti şəbəkəsi üzrə əməliyyatlar, ödəniş xidməti şəbəkəsinin Azərbaycan Respublikası üzrə regional bölgüsü, ödəniş xidməti istifadəçiləri, vasitəçilik və hesab üzrə məlumat xidməti istifadəçiləri və onların apardığı əməliyyatlar, ödəniş əməliyyatının aparılması üçün qəbul edilmiş pul vəsaitinin saxlandığı hesabların dövriyyəsi və qalıqları, ödəniş alətləri ilə aparılan fırıldaqçılıq əməliyyatları haqqında və digər statistik məlumatları nəzərdə tutur.

1.3. Hesabatın tərtib olunmasında məqsəd Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra – Mərkəzi Bank) tərəfindən ödəniş xidməti təchizatçılarının və operatorların fəaliyyətinin əlaqələndirilməsi və tənzimlənməsi, habelə maliyyə inklüzivliyinin qiymətləndirilməsi və bu Təlimatın 1.2-ci bəndində göstərilən statistik vahidlər tərəfindən aparılan hesablaşmalarda nağd və nağdsız dövriyyə üzrə tam və dolğun statistik məlumatların əldə edilməsidir.

## 2. Anlayışlar

2.1. Bu Təlimatın məqsədləri üçün istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. avtorizə etmə (avtorizasiya) – ödəniş əməliyyatının həyata keçirilməsi üzrə ödəniş xidməti istifadəçisinin ödəniş xidməti təchizatçısına verdiyi razılıq;

2.1.2. hesab üzrə məlumat xidməti - ödəniş xidməti istifadəçisinin bir və ya bir neçə digər ödəniş xidməti təchizatçısı tərəfindən xidmət olunan ödəniş hesabları üzrə məlumatların onlayn təqdim edilməsi xidməti;

2.1.3. hesab üzrə məlumat xidməti təchizatçısı – ödəniş hesabı üzrə məlumat xidməti göstərən ödəniş xidməti təchizatçısı;

2.1.4. ödəniş əməliyyatının aparılması üçün vasitəçilik xidməti – ödəniş xidməti istifadəçisinin müraciəti əsasında onun digər ödəniş xidməti təchizatçısında açılmış ödəniş hesabı üzrə ödəniş sərəncamının verilməsi xidməti;

2.1.5. vasitəçi – ödəniş əməliyyatının aparılması üçün vasitəçilik xidmətini göstərən ödəniş xidməti təchizatçısı;

2.1.6. ödəniş hesabı – ödəniş əməliyyatlarının aparılması üçün bir və ya bir neçə ödəniş xidməti istifadəçisinə açılan hesab;

2.1.7. əvvəlcədən ödənilmiş ödəniş aləti – əvvəlcədən mədaxil edilmiş pul həcmində mal, iş və xidmətlərin dəyərinin ödənilməsinə və (və ya) nağd pul vəsaitinin əldə edilməsinə imkan verən kart və ya şəbəkə əsaslı elektron pul;

2.1.8. ödəniş kartı – nağdsız ödənişlərin aparılması və nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən fiziki və ya virtual ödəniş aləti;

2.1.9. virtual ödəniş kartı – kart istifadəçisi haqqında məlumatların və kart məlumatlarının fiziki olaraq elektron daşıyıcıya (çipə) və (və ya) maqnit lentə yüklənilmədən emissiya edilən ödəniş kartı;

2.1.10. debet ödəniş kartı (bundan sonra – debet kart) – statistik vahidin müştərisinin hesabında olan vəsait hesabına nağdsız ödənişlərin aparılması və ya nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən ödəniş kartı;

2.1.11. kredit ödəniş kartı (bundan sonra – kredit kartı) – statistik vahidin və ya ixtisaslaşmış dövlət qurumlarının vəsaiti hesabına statistik vahidin müştərisinə ayrılmış kredit vasitəsilə nağdsız ödənişlərin aparılması və ya nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən ödəniş kartı;

2.1.12. korporativ kart – hüquqi şəxsin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin sahibkarlıq fəaliyyəti ilə bağlı açılmış ödəniş hesabında olan pul vəsaitlərindən ödəniş əməliyyatlarının həyata keçirilməsinə imkan verən ödəniş aləti;

2.1.13. elektron pul – qəbul edilən pul vəsaiti məbləğində ödəniş xidməti istifadəçisinin sərəncamına verilən, elektron formada saxlanılan, ödəniş əməliyyatlarının həyata keçirilməsinə imkan verən və elektron pulun emitenti ilə yanaşı üçüncü şəxslər tərəfindən də ödəniş üçün qəbul edilən ödəniş aləti;

2.1.14. elektron pul təşkilatı – “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada aldığı lisenziya əsasında elektron pulu emissiya və elektron pul ilə əlaqəli ödəniş əməliyyatlarını icra edən,

eyni zamanda lisenziyasında nəzərdə tutulduğu halda digər ödəniş xidmətlərini həyata keçirmək hüququ olan hüquqi şəxs;

2.1.15. operator – "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada aldığı lisenziya əsasında ödəniş sisteminin fəaliyyətini təşkil edən və həmin sistemin qaydalarını müəyyən edən şəxs;

2.1.16. ödəniş sistemi iştirakçısı – ödəniş sistemində iştirak üzrə müqavilə bağlayan və ödəniş sisteminə dair qaydalar əsasında iştirakçı kimi tanınan şəxs;

2.1.17. ödəniş xidməti şəbəkəsi – ödəniş alətləri vasitəsilə ödəniş əməliyyatının aparılması, o cümlədən nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən ödəniş xidməti təchizatçılarına məxsus avadanlıq və yaxud elektron platforma, o cümlədən bankomatlar, POS-terminallar, özünəxidmət terminalları, internet səhifə, mobil tətbiq və digər elektron şəbəkələr;

2.1.18. ödəniş terminalı – ödəniş əməliyyatını ödəniş alətləri, o cümlədən nağd pul vasitəsilə həyata keçirmək imkanı verən avadanlıq;

2.1.19. özünəxidmət terminalı – bankomatlar, POS-terminallar istisna olmaqla ödəyicilərə ödənişləri nağd pul vəsaiti və ya ödəniş kartları, həmçinin digər ödəniş alətləri vasitəsilə həyata keçirmək imkanı verən və onları ödəniş əməliyyatları üzrə təsdiqləyici sənədlə təmin edən müvafiq proqram təminatı ilə təchiz olunmuş avadanlıq;

2.1.20. POS-terminal – nağdsız ödənişlərin (o cümlədən təmassız ödənişlərin) aparılması və (və ya) nağd pul vəsaitinin alınması üçün nəzərdə tutulmuş avadanlıq, o cümlədən lazımi proqram təminatı ilə təmin edilmiş mobil cihaz (mobil operatorların ümumistifadəli telekommunikasiya şəbəkələrində mobil (sellülar) xidmət alan (xidmət almağa yararlı olan) telefon aparatı və digər son avadanlıq);

2.1.21. ödəniş agenti – bank, ödəniş təşkilatı və ya elektron pul təşkilatı ilə bağlanılmış müqavilə əsasında onun adından çıxış edərək ödəniş xidmətlərini göstərən hüquqi şəxs və ya sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxs;

2.1.22. ekvayrinq – vəsait alan ilə müqavilə bağlayaraq ödəniş alətləri ilə aparılan və vəsaitlərin vəsait alanın xeyrinə köçürülməsi ilə nəticələnən əməliyyatlar üzrə məlumatların qəbulu və emalı və ya nağd pul vəsaitinin verilməsi üzrə ödəniş xidməti təchizatçıları tərəfindən göstərilən xidmət;

2.1.23. internet bankçılıq – istifadəçi tərəfindən statistik vahidin bank xidmətlərindən müvafiq proqram təminatını quraşdırmadan, lakin zəruri autentifikasiya prosesindən keçməklə internet şəbəkəsi üzərindən istifadə;

2.1.24. mobil bankçılıq – istifadəçi tərəfindən statistik vahidin müvafiq proqram təminatını quraşdırmaqla mobil qurğular (mobil telefon, planşet kompüter və s.) vasitəsilə mobil rabitə kanalları (GSM, CDMA, 3G, HSPA+, WiFi, LTE və s.) üzərindən, zəruri autentifikasiya prosesindən keçməklə bank xidmətlərindən istifadə;

2.1.25. PC bankçılıq – istifadəçi tərəfindən statistik vahidin müvafiq proqram təminatı quraşdırılmaqla ayrılmış rabitə kanalı və ya internet şəbəkəsi üzərindən (www – World Wide Web) bank xidmətlərindən istifadə;

2.1.26. elektron ticarət – informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi (o cümlədən, internet şəbəkəsi vasitəsi ilə elektron kitabların, musiqinin, audio-video materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənməsi, reklamların yerləşdirilməsi, digər analoji iş və xidmətlər) üzrə həyata keçirilən fəaliyyət;

2.1.27. pul köçürməsi – ödəyici və (və ya) vəsait alanın adına ödəniş hesabı açılmadan pul vəsaitinin vəsait alanın xeyrinə köçürülməsi əməliyyatı;

2.1.28. pul köçürmə sistemləri – ölkə daxilində və ya ölkə xaricinə pul köçürməsinə imkan verən sistem;

2.1.29. birbaşa debitləşmə – ödəyicinin vəsait alana, vəsait alanın və ya ödəyicinin ödəniş xidməti təchizatçısına əvvəlcədən verdiyi razılığa əsasən vəsait alanın ödəniş sərəncamına əsaslanan ödəyicinin ödəniş hesabının debitləşdirilməsi üçün istifadə olunan ödəniş aləti;

2.1.30. kredit köçürməsi (ödəniş tapşırığı) – ödəniş hesabına xidmət göstərən ödəniş xidməti təchizatçısı tərəfindən vəsaitin köçürülməsi məqsədilə istifadə olunan, ödəyicinin ödəniş sərəncamına əsaslanan ödəniş aləti;

2.1.31. təmassız ödəniş kartı – daxilində radiotezlikli identifikator quraşdırılmış və təmassız ödənişlərin aparılmasına imkan verən ödəniş kartı;

2.1.32. təmassız ödəniş əməliyyatı – kart məlumatlarının təmassız texnologiyalar vasitəsilə radiotezliklərlə ötürülməsi ilə həyata keçirilən ödəniş əməliyyatı;

2.1.33. müştəri eyniləşdirilmədən aparılan təmassız ödənişlər – təmassız ödəniş kartının kart istifadəçisi tərəfindən POS-terminala yalnız yaxınlaşdırılması ilə aparılan ödəniş əməliyyatı;

2.1.34. müştəri eyniləşdirilməklə aparılan təmassız ödənişlər – kart istifadəçisi tərəfindən POS-terminalda PİN-kod (şəxsi eyniləşdirmə nömrəsi) yığılmaqla aparılan təmassız ödəniş əməliyyatı;

2.1.35. uğurlu əməliyyat – ekvayer və ya onun operatorunun formalaşdırdığı avtorizasiya sorğusuna müsbət cavab alınması;

2.1.36. uğursuz əməliyyat – ekvayer və ya onun operatorunun formalaşdırdığı avtorizasiya sorğusuna imtina cavabının alınması və ya cavabın alınmaması;

2.1.37. maliyyə əməliyyatı – aparılmış əməliyyat nəticəsində pul vəsaitlərinin yerdəyişməsi nəzərdə tutulan əməliyyat;

2.1.38. qeyri-maliyyə əməliyyatı - aparılmış əməliyyat nəticəsində pul vəsaitlərinin yerdəyişməsi nəzərdə tutulmayan əməliyyat;

2.1.39. açılmış mübahisəli hal (chargeback) – emitentin və ya onun operatorunun mübahisəli əməliyyat üzrə vəsaitin akseptsiz qaydada geri qaytarılması tələbi;

2.1.40. SHA-2 (Secure Hash Algorithm) – biristiqamətli təhlükəsiz heş alqoritmi;

2.1.41. yenidən açılmış mübahisəli hal (representment/second presentment) – ekvayerin açılmış mübahisəli hal (chargeback) tələbi ilə razılaşmadığı halda mübahisəli ödənişin ekvayerə akseptsiz qaydada geri qaytarılması tələbi

2.1.42. token əməliyyatı – kart məlumatlarının xüsusi alqoritmlə şifrələnməsi və əvəzlənməsi ilə həyata keçirilən ödəniş əməliyyatı;

2.1.43. itmiş/oğurlanmış kartla (Lost/Stolen Card) fırıldaqçılıq əməliyyatları –ödəniş kartının itməsi və ya oğurlanması nəticəsində, habelə kart istifadəçisinin razılığı və ya icazəsi olmadan ödəniş kartından istifadə nəticəsində baş vermiş fırıldaqçılıq hadisəsi;

2.1.44. hesabın və ya kart məlumatlarının ələ keçirilməsi (account takeover, fraudulent application) – üçüncü tərəfin müxtəlif vasitələrdən (saxta mobil tətbiqlər, saxta internet səhifə, məlumat toplayan proqramlar, ödəniş xidməti təchizatçısının əməkdaşı qismində özünü təqdim etmə və s.) istifadə etməklə istifadəçinin şəxsi hesablarını və ya unikal məlumatlarını (ödəniş kartının nömrəsi, istifadəçinin ünvanı, istifadə olunan şifrəni, gizli cavabı və s.) ələ keçirərək vəsaitləri əldə etdiyi fırıldaqçılıq forması;

2.1.45. saxta/surəti çıxarılmış kartla (Counterfeit/Skimming) fırıldaqçılıq əməliyyatları – maqnit lentin surətinin çıxarılması/dəyişdirilməsi və kartın üzərindəki məlumatların dəyişdirilməsi ilə saxtalaşdırılmış və ya qanunsuz olaraq hazırlanmış ödəniş kartlarının istifadəsi nəticəsində baş vermiş fırıldaqçılıq hadisəsi. Surətçıxarma (Skimming) həqiqi kartın maqnit lentində olan məlumatların surətinin çıxarılması ilə maqnit lentin saxtalaşdırılması formasıdır;

2.1.46. kart təqdim edilmədən (CNP) fırıldaqçılıq əməliyyatları – kart istifadəçisinin icazəsi olmadan ona məxsus ödəniş kartının məlumatlarından istifadə edilməklə (fiziki olaraq ödəniş kartı təqdim edilmədən) telefon, e-poçt ünvanı, internet və s. vasitəsilə baş vermiş fırıldaqçılıq hadisəsi;

2.1.47. təsərrüfat subyekti tərəfindən həyata keçirilən (Collusive Merchant & Multiple Imprint) fırıldaqçılıq əməliyyatları – fırıldaqçılarla sövdələşmə nəticəsində təsərrüfat subyektləri və ya onların işçiləri tərəfindən aparılan fırıldaqçılıq əməliyyatları (artıq məbləğin silinməsi, əməliyyatın bir neçə dəfə həyata keçirilməsi və s.);

2.1.48. digər fırıldaqçılıq əməliyyatları – bu Təlimatın 2.1.43-2.1.47-ci yarımbəndlərində qeyd edilməmiş hallar nəticəsində baş vermiş fırıldaqçılıq hadisəsi. Məsələn, səlahiyyətsiz olaraq kart istifadəçisinin hesabına giriş əldə etməklə kart istifadəçisinin icazəsi olmadan kart hesabının istifadəsi və ya təsərrüfat subyektlərində imprinter vasitəsilə ödəniş kartının üzünü çıxartmaqla sonradan məlumatlardan istifadə olunması və s. nəticəsində yaranan fırıldaqçılıq hadisələri.

2.2. Bu Təlimatda istifadə olunan “rezident” və “qeyri-rezident” anlayışları “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulan mənaları, digər anlayışlar isə “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının Qanununda, habelə digər normativ hüquqi və normativ xarakterli aktlarda müəyyənləşdirilmiş mənaları ifadə edir.

## 3. Banklar tərəfindən təqdim olunan hesabatların məzmunu və tərtib edilməsi

3.1. Bankların ödəniş statistikası üzrə hesabatı (bundan sonra – ÖS-Bank hesabatı) aşağıdakı statistik formalardan ibarətdir:

3.1.1. "Bankın emissiya etdiyi ödəniş kartları vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar haqqında statistik hesabat" formasında (Forma ÖS-Bank-1 – Əlavə №1) bankın emissiya etdiyi debet və kredit kartlarından istifadə etməklə ödəniş xidməti şəbəkəsi vasitəsilə ölkədaxili və ölkə xaricində aparılan əməliyyatların hesabat dövrü üzrə sayı və həcmi haqqında məlumatlar əks olunur:

3.1.1.1. hesabat formasının "Bankın emissiya etdiyi ödəniş kartları vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar" hissəsində bankın emissiya etdiyi debet və kredit kartlarından istifadə edilməklə ödəniş xidməti şəbəkəsi vasitəsilə ölkə daxilində və ölkə xaricində aparılan əməliyyatların hesabat dövrü üzrə sayı və həcmi haqqında məlumatlar "Bankın emissiya etdiyi debet kartları vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar" və "Bankın emissiya etdiyi kredit kartları vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar" hissələrinin müvafiq məlumatları əsasında tərtib edilir;

3.1.1.2. hesabat formasının "Bankın emissiya etdiyi debet kartları vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar" hissəsində bankın emissiya etdiyi debet kartları ilə aparılan əməliyyatlar əks etdirilir;

3.1.1.3. hesabat formasının "Bankın emissiya etdiyi kredit kartları vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar" hissəsində bankın emissiya etdiyi kredit kartları ilə aparılan əməliyyatlar əks etdirilir;

3.1.1.4. hesabat formasının "Ümumi əməliyyatlar" hissəsində bankın emissiya etdiyi ödəniş kartları ilə həm banka, həm də digər ödəniş xidməti təchizatçılarına məxsus ödəniş xidməti şəbəkəsi üzrə aparılan əməliyyatlar əks etdirilir;

3.1.1.5. hesabat formasının "ondan özünə məxsus ödəniş xidməti şəbəkəsində aparılan əməliyyatlar" hissəsində bankın emissiya etdiyi ödəniş kartları ilə yalnız banka məxsus ödəniş xidməti şəbəkəsində aparılan əməliyyatlar əks etdirilir;

3.1.1.6. hesabat formasında "Ölkə xaricində aparılan əməliyyatlar" hissəsindəki əməliyyatların sayı və həcmi ödəniş terminalları (bankomatlar, POS-terminallar və özünəxidmət terminalları) vasitəsilə nağd pulun çıxarılması, ödənişlərin həyata keçirilməsi, internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatlarından ibarətdir;

3.1.1.7. hesabat formasında "Ölkə daxilində aparılan əməliyyatlar" hissəsindəki əməliyyatların sayı və həcmi bankomatlar, POS-terminallar, internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə, özünəxidmət terminalları vasitəsilə aparılan ödəniş əməliyyatlarının, həmçinin sadalanan qruplara aid edilməyən digər əməliyyatların sayı və həcmindən ibarətdir;

3.1.1.8. hesabat formasında bankomatlar və POS-terminallar üzrə əməliyyatlar nağd (nağd pulun çıxarılması) və nağdsız (ödənişlərin həyata keçirilməsi) əməliyyatlar üzrə təsnifləşdirilir;

3.1.1.9. hesabat formasının "İnternet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatları" hissəsi elektron ticarət vasitəsilə mal, iş və ya xidmətlərin dəyərinin ödənilməsi və internet səhifə, mobil tətbiq vasitəsilə aparılan ödəniş

kartına vəsaitin köçürülməsi, elektron pula vəsaitin köçürülməsi və digər ödəniş hesabına və ya alətinə vəsaitin köçürülməsi üzrə təsnifləşdirilir;

3.1.1.10. hesabat formasının "Özünəxidmət terminalları üzrə əməliyyatlar" hissəsi ödənişlərin həyata keçirilməsi, ödəniş kartına vəsaitin köçürülməsi, elektron pula vəsaitin köçürülməsi və digər ödəniş hesabına və ya alətinə vəsaitin köçürülməsi üzrə təsnifləşdirilir.

3.1.2. "Bankın emissiya etdiyi ödəniş kartları vasitəsilə ölkəxarici ödəniş əməliyyatlarının təyinatı haqqında statistik hesabat" formasında (Forma ÖS-Bank-2 – Əlavə №2) hesabat dövrü üzrə bankın emissiya etdiyi ödəniş kartları ilə ölkə xaricində bankomatlar, POS-terminallar, özünəxidmət terminalları və internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatları təsərrüfat subyektinin kateqoriya koduna əsasən qeyd olunur.

3.1.3. "Banka məxsus ödəniş xidməti şəbəkəsinin regionlar üzrə yerləşdirilməsi haqqında statistik hesabat" formasında (Forma ÖS-Bank-3 – Əlavə №3) banka məxsus quraşdırılmış və istismara verilmiş bankomatların, POS-terminalların, özünəxidmət terminallarının və valyuta mübadiləsinin aparılmasına imkan verən proqram təminatı ilə təchiz olunmuş mübadilə terminallarının fiziki yerləşdiyi, elektron ticarət üzrə isə quraşdırılmış virtual POS-terminalların qeydiyyata alındığı regionlar üzrə sayı göstərilir:

3.1.3.1. bankomatlar nağd pul qəbul edən (cash-in), valyuta mübadiləsini həyata keçirmə funksiyalarına (ödəniş kart istifadə olunmadan), qəbul edilmiş pulu yenidən dövriyyəyə buraxma funksiyalarına (recycle), təmassız ödənişləri qəbul etmə funksiyalarına görə təsnifləşdirilir;

3.1.3.2. POS-terminallar təmassız ödənişləri qəbul etmə imkanına, bankın baş ofis, əməliyyat bölmələri və ödəniş agentlərində və ya ticarət, ictimai iaşə və xidmət müəssisələrində quraşdırılmasına əsasən təsnif olunur. Ticarət, ictimai iaşə və xidmət müəssisələrində quraşdırılmış POS-terminallar təmassız ödənişləri qəbul edən, mobil POS-terminal (Tap to Phone) xüsusiyyətinə, ticarət müəssisələrində nağd pul vəsaitinin verilməsi mümkün olan (POS-cash) və dövr ərzində aktiv istifadə edilməsinə əsasən təsnifləşdirilir. Ay ərzində azı 4 (dörd) ödəniş əməliyyatı icra olunan POS-terminal dövr ərzində aktiv istifadə edilən hesab olunur;

3.1.3.3. özünəxidmət terminalları ödəniş kartları və xarici valyutanı qəbul etmə funksiyalarına görə təsnifləşdirilir.

3.1.4. "Banka məxsus ödəniş xidməti şəbəkəsində rezident və qeyri-rezident ödəniş xidməti təchizatçılarının emissiya etdiyi ödəniş kartları vasitəsilə ödəniş əməliyyatlarının təyinatı haqqında statistik hesabat" formasında (Forma ÖS-Bank-4 – Əlavə №4) hesabat dövrü üzrə rezident (həmçinin bankın emissiya etdiyi ödəniş kartları daxil olmaqla) və qeyri-rezident ödəniş xidməti təchizatçılarının emissiya etdiyi ödəniş kartları vasitəsilə banka məxsus bankomatlar, POS-terminallar, internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə, özünəxidmət terminallarında aparılan ödəniş əməliyyatları təsərrüfat subyektinin kateqoriya koduna uyğun olaraq qeyd olunur:

3.1.4.1. hesabat formasında ödəniş terminalları (bankomat, POS-terminal və özünəxidmət terminalları) üzrə ödəniş əməliyyatları Bakı şəhəri və regionlar üzrə əks etdirilir.

3.1.5. "Bankın emissiya etdiyi ödəniş kartlarının strukturu və dövriyyəsi haqqında statistik hesabat" forması (Forma ÖS-Bank-5 – Əlavə №5) "Bankın emissiya etdiyi ödəniş kartlarının strukturu haqqında statistik hesabat" (ÖS-Bank-5.1) və "Bankın emissiya etdiyi ödəniş kartlarının dövriyyəsi haqqında statistik hesabat" (ÖS-Bank-5.2) cədvəllərindən ibarətdir:

3.1.5.1. "Bankın emissiya etdiyi ödəniş kartlarının strukturu haqqında statistik hesabat" cədvəlində (ÖS-Bank-5.1) hesabat dövrünün sonuna təyinatına, ödəniş sistemləri üzrə, məlumat daşıyıcısına görə ödəniş kartlarının və istifadəçilərinin sayı, hesabat dövrü üzrə ödəniş kartlarının təyinatı, ödəniş sistemləri üzrə bölgüsü, məlumat daşıyıcısına görə pul vəsaitlərinin məxaric və mədaxil əməliyyatlarının sayı və həcmi əks olunur;

3.1.5.2. ödəniş kartları (virtual kartlar da daxil olmaqla) təyinatına görə debet və kredit kartlarına bölünür:

3.1.5.2.1. debet kartları təyinatına görə sosial kartlar, əməkhaqqı kartları və digər kartlar üzrə təsnifləşdirilir.

3.1.5.2.1.1. sosial kartlar:

3.1.5.2.1.1.1. pensiya kartı – yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasının verilməsi üçün istifadə olunan kart;

3.1.5.2.1.1.1.1. aktiv olmayan pensiya kartları – pensiya ilə əlaqədar son 180 gün ərzində mədaxil olmayan ödəniş kartları qeyd olunur;

3.1.5.2.1.1.1.2. yaşa görə əmək pensiyası kartı – yaşa görə əmək pensiyasının verilməsi üçün istifadə olunan kart;

3.1.5.2.1.1.2. sosial müavinət kartı – "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş qaydada ayrı-ayrı kateqoriya şəxslərə sosial yardım göstərilməsi məqsədilə aylıq (dövlət qulluqçularına ömürlük müavinət, yaşa görə müavinət, əlilliyə görə müavinət, ailə başçısını itirməyə görə müavinət, üç yaşınadək uşağa qulluğa görə müavinət, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət və s.) və ya birdəfəlik (radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün müavinət, uşağın anadan olmasına görə müavinət, dəfn üçün müavinət və s.) ödənilən pul vəsaitinin, habelə ünvanlı dövlət sosial yardımı, məcburi köçkünlərə verilən müavinətlərin verilməsi üçün istifadə olunan kart;

3.1.5.2.1.1.3. dövlət büdcəsindən ayrılan subsidiya (yardım) - dövlət büdcəsinin vəsaiti hesabına müvafiq şəxslərə əvəzsiz verilən maliyyə vəsaiti üçün istifadə olunan kart;

3.1.5.2.1.1.4. təhsil təqaüdü kartı – ali təhsil müəssisələrinin adlı, magistr, bakalavr pilləsi üzrə, orta ixtisas təhsili müəssisələrinin və peşə təhsili müəssisələrinin tələbələrə müəyyən etdiyi təqaüdlərin verilməsi üçün istifadə olunan kart;

3.1.5.2.1.1.5. digər sosial kartlar – yuxarıda qeyd olunan kartlara aid olmayan digər debet kartları;

3.1.5.2.1.2. əmək haqqı kartları:

3.1.5.2.1.2.1. dövlət orqanları (qurumları), dövlət müəssisə və təşkilatları üzrə;

3.1.5.2.1.2.1.1. dövlət orqanları (qurumları), dövlət müəssisə və təşkilatları üzrə aktiv olmayan əmək haqqı kartları - əmək haqqı ilə əlaqədar son 180 gün ərzində mədaxil olmayan ödəniş kartları qeyd olunur;

3.1.5.2.1.2.2. özəl sektor üzrə;

3.1.5.2.1.2.2.1. özəl sektor üzrə aktiv olmayan əmək haqqı kartları - əmək haqqı ilə əlaqədar son 180 gün ərzində mədaxil olmayan ödəniş kartları qeyd olunur;

3.1.5.2.1.3. digər debet kartları – yuxarıda qeyd olunan kartlara aid edilməyən digər debet kartları.

3.1.5.2.2. kredit kartları ilə bağlı hissədə ixtisaslaşmış dövlət qurumlarının vəsaiti hesabına güzəştli kreditlərlə bağlı verilən kartların göstəriciləri əks etdirilir.

3.1.5.3. ödəniş sistemləri üzrə ödəniş kartları Visa, Mastercard, American Express, Diners Club, UnionPay, lokal kartlar və digər sistemlər üzrə təsnifləşdirilir;

3.1.5.3.1. Visa və Mastercard ödəniş sistemləri üzrə kartlar premial, adi və digər olmaqla təsnifləşdirilir;

3.1.5.3.1.1. "ondan Visa Business" və "ondan Mastercard Business" sətirlərinə həm premial, həm də adi biznes kartları daxil edilir.

3.1.5.4. Məlumat daşıyıcısına görə ödəniş kartları maqnit lentli, hibrid (maqnit lentli və mikroprosessorlu) və virtual ödəniş kartları kimi təsnifləşdirilir.

3.1.5.5. "Bankın emissiya etdiyi ödəniş kartlarının dövriyyəsi haqqında statistik hesabat" cədvəlində (ÖS-Bank-5.2) hesabat dövrünün əvvəlinə dövriyyədə olan, hesabat dövrü ərzində dövriyyəyə buraxılmış, hesabat dövrü ərzində dövriyyədən çıxarılmış, hesabat dövrünün sonuna dövriyyədə olan, hesabat dövründə istifadə edilməyən (hesabat dövrü ərzində istifadəçisi tərəfindən heç bir ödəniş və nağd pulun çıxarılması əməliyyatı aparılmayan ödəniş kartı), hesabat dövrü ərzində yalnız nağdlaşdırma əməliyyatı aparılan ödəniş kartlarının və istifadəçilərinin sayı qeyd olunur.

3.1.6. "Bankın müştəri hesabları, müştəri hesablarından köçürmələr və daxilolmalar haqqında statistik hesabat" formasında (Forma ÖS-Bank-6 – Əlavə №6) bankın müştərilərinin hesab növü, hüquqi statusuna görə hesablarının sayı, məsafədən açılan hesabların sayı, elektron şəbəkə və ya cihazlar üzrə istifadəçilərin hüquqi statusuna görə sayı, cari hesablarından köçürmələrin növünə görə sayı və həcmi əks etdirilir:

3.1.6.1. "Bankın müştəri hesabları, müştəri hesablarından köçürmələr və daxilolmalar haqqında statistik hesabat" forması "Bankın müştəri hesabları haqqında statistik hesabat" (ÖS-Bank-6.1) və "Bankın müştəri hesablarından köçürmələr və daxilolmalar haqqında statistik hesabat" (ÖS-Bank-6.2) cədvəllərindən ibarətdir:

3.1.6.1.1."Bankın müştəri hesabları haqqında statistik hesabat" cədvəlində (ÖS-Bank-6.1) bankın müştərilərinin əmanət, cari hesablar, o cümlədən kreditlərin verilməsi məqsədilə açılan cari hesablar üzrə hesabat dövrü üzrə və dövrün sonuna hesab sayı və hesab sahiblərinin sayı üzrə təsnifləşdirilir. Dövrün sonuna "aktiv hesablar" göstəricilərində son 36 (otuz altı) ay ərzində hesabın qalığı sıfır olan, həmçinin hesabdan mədaxil və ya məxaric əməliyyatları həyata keçirilməyən hesablar nəzərə alınmamalıdır;

3.1.6.1.1.1. cədvəlin "Müştəri hesablarının hesab növünə görə sayı" hissəsində müştərilərin əmanət, cari hesabları, o cümlədən kreditlərin verilməsi məqsədilə açılan cari hesabları üzrə sayı qeyd olunur;

3.1.6.1.1.2. cədvəlin "Əmanət hesablarının hüquqi statusuna görə sayı" hissəsində müştərilərin əmanət hesablarının sayı fiziki şəxslər, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər və hüquqi şəxslər üzrə təsnifləşdirilir.

3.1.6.1.1.3. cədvəlin "Əmanət hesablarının müddətinə görə sayı" hissəsində müştərilərin əmanət hesablarının sayı müddətli və tələbli üzrə təsnifləşdirilir;

3.1.6.1.1.4. cədvəlin "Kreditlərin verilməsi məqsədilə açılan cari hesabların sayı" hissəsində müştərilərə verilən kreditlərin uçotunun aparıldığı cari hesabların sayı fiziki şəxslər, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər və hüquqi şəxslər üzrə təsnifləşdirilir;

3.1.6.1.1.5. cədvəlin "Kreditlərin verilməsi məqsədilə açılan cari hesabların müddətinə görə sayı" hissəsində müştərilərin kreditlərinin uçotunun aparıldığı cari hesablarının sayı kreditlərin uzunmüddətli (360 gündən artıq) və qısamüddətli (360 günə qədər) olması üzrə təsnifləşdirilir;

3.1.6.1.1.6. cədvəlin "Cari hesabların hüquqi statusuna görə sayı" hissəsində müştərilərin cari hesablarının sayı fiziki şəxslər, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər və hüquqi şəxslər üzrə təsnifləşdirilir;

3.1.6.1.1.7. cədvəlin "Elektron şəbəkə və ya cihazlar üzrə istifadəçilərin hüquqi statusuna görə sayı" hissəsində internet və mobil bankçılıq xidmətlərindən istifadə edən müştərilərin fiziki şəxslər, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər və hüquqi şəxslər və PC bankçılıq üzrə təsnifləşdirilir;

3.1.6.1.1.8. cədvəldə hesabat dövrü üzrə göstəriciləri bank tərəfindən hesabat dövrü ərzində açılan hesabların, cəlb olunan müştərilərin sayı (mövcud və yeni), dövrün sonuna göstəriciləri isə dövrün sonuna müştəri və hesabların faktiki say göstəriciləri əks olunur.

3.1.6.1.2. "Bankın müştəri hesablarından köçürmələr və daxilolmalar haqqında statistik hesabat" cədvəlində (ÖS-Bank-6.2) bankın müştərilərinin cari hesablarından hesabat dövrü üzrə köçürmələrin sayı və həcmi əks olunur;

3.1.6.1.2.1. cədvəlin "Cari hesablardan vəsaitlərin köçürülməsinin hüquqi statusuna görə" hissəsində müştərilərin cari hesablarından aparılan məxaric köçürmələrinin sayı və həcmi fiziki şəxslər, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər və hüquqi şəxslər üzrə təsnifləşdirilir;

3.1.6.1.2.2. cədvəlin "Cari hesablardan vəsaitlərin bankdaxili və bankdankənar köçürülməsi növünə görə" hissəsində müştərilərin cari hesablarından bankdaxili və bankdankənar (ölkədaxili və ölkəxarici) məxaric köçürmələrinin sayı və həcmi fiziki şəxslər, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər və hüquqi şəxslər üzrə təsnifləşdirilir;

3.1.6.1.2.3. cədvəlin "Cari hesablardan vəsaitlərin köçürülməsi növünə görə" hissəsində müştərilərin cari hesablarından məxaric köçürmələrinin sayı və həcmi kağız

daşıyıcılarla (kredit köçürməsi, birbaşa debitləşmə, digər) və elektron şəbəkə və ya cihazlar (internet bankçılıq, mobil bankçılıq, PC bankçılıq, digər) növünə görə təsnifləşdirilir;

3.1.6.1.2.3.1. cari hesabdan vəsaitlərin köçürülməsi kağız daşıyıcıda təqdim olunan sənədlər əsasında aparılarsa, əməliyyatlar "Kağız daşıyıcılarla köçürmələr" bölməsinin müvafiq sətirlərində qeyd olunur;

3.1.6.1.2.3.2. cari hesabda vəsaitlərin köçürülməsi elektron şəbəkə və ya cihazlar vasitəsilə təqdim olunan sənədlər əsasında aparılarsa, əməliyyatlar "Elektron şəbəkə və ya cihazlar vasitəsilə köçürmələr" bölməsinin müvafiq sətirlərində qeyd olunur;

3.1.6.1.2.3.2.1. internet bankçılıq, mobil bankçılıq və PC bankçılıq sətirlərində müştərinin cari hesabları, habelə müvafiq elektron bankçılıq platformasına əlavə edilmiş ödəniş kartları vasitəsilə həyata keçirilən ödənişlər və köçürmələr qeyd olunur;

3.1.6.1.2.3.2.2. "Elektron şəbəkə və ya cihazlar vasitəsilə köçürmələr" bölməsinin "ondan digər" sətrində banka məxsus olmayan elektron bankçılıq platformalarına əlavə olunmuş bankın müştərilərinin cari hesabları və ödəniş kartları vasitəsilə həyata keçirilən ödənişlər və köçürmələr qeyd olunur;

3.1.6.1.2.4. cədvəlin "Cari hesablara daxilolmaların hüquqi statusuna görə" hissəsində müştərilərin cari hesablarına mədaxil köçürmələrinin sayı və həcmi fiziki şəxslər, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər və hüquqi şəxslər üzrə təsnifləşdirilir;

3.1.6.1.2.5. cədvəlin "Cari hesablara bankdaxili və bankdankənar daxilolmaların növünə görə" hissəsində müştərilərin cari hesablarına bankdaxili və bankdankənar (ölkədaxili və ölkəxarici) mədaxil köçürmələrinin sayı və həcmi fiziki şəxslər, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər və hüquqi şəxslər üzrə təsnifləşdirilir.

3.1.7. "Banka məxsus ödəniş xidməti şəbəkəsində ödəniş xidməti təchizatçılarının emissiya etdiyi ödəniş kartları vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar haqqında statistik hesabat" formasında (Forma ÖS-Bank-7 – Əlavə №7) hesabat dövrü üzrə banka məxsus ödəniş xidməti şəbəkəsində rezident (həmçinin bankın emissiya etdiyi ödəniş kartları daxil olmaqla) və qeyri-rezident ödəniş xidməti təchizatçılarının emissiya etdiyi ödəniş kartları ilə aparılan əməliyyatların sayı və həcmi ödəniş növləri (nağd pulun çıxarılması və ödənişlərin həyata keçirilməsi) və ödəniş sistemləri üzrə təsnifləşdirilir:

3.1.7.1. ödəniş kartlarının ödəniş sistemləri üzrə Visa, Mastercard, American Express, Diners Club, UnionPay, lokal kartlar və digər sistemlər üzrə təsnifləşdirilir;

3.1.7.2. hesabat formasında bankın bankomat, POS-terminal və özünəxidmət terminalları üzrə əməliyyatlar Bakı şəhəri və regionlar üzrə əks olunur;

3.1.7.3. bankomat və POS-terminallar üzrə əməliyyatlar nağd (nağd pulun çıxarılması) və nağdsız (ödənişlərin həyata keçirilməsi) əməliyyatları üzrə təsnifləşdirilir.

3.1.8. "Bank tərəfindən istifadə olunan pul köçürmə sistemləri vasitəsilə aparılan əməliyyatlar haqqında statistik hesabat" formasında (Forma ÖS-Bank-8 – Əlavə №8) hesabat dövrü üzrə pul köçürmə sistemləri (yerli və xarici) vasitəsilə milli və xarici

valyutada (xarici valyutada aparılan əməliyyatların manat ekvivalenti) banka daxilolmalar və bankdan kənara köçürmələrin sayı və həcmi əks olunur:

3.1.8.1. hesabat formasında pul köçürmə sistemləri vasitəsilə banka daxilolmalar və bankdan kənara köçürmələr pul köçürmə sistemlərinin adları, ölkədaxili və ölkəxarici, ödəniş üsulu üzrə təsnifləşdirilir;

3.1.8.2. hesabat formasında pul köçürmə sistemləri vasitəsilə banka daxilolmalar və bankdan kənara köçürmələr pul köçürmə sistemlərinin siyahıdakı adlarına uyğun təsnifləşdirilir. Siyahıda adı əks olunmayan hər hansı digər pul köçürmə sistemi vasitəsilə banka daxilolmalar və bankdan kənara köçürmələr həyata keçirildikdə həmin əməliyyatlar "digər" seçimində əks olunur;

3.1.8.3. hesabat formasında hesab açmadan və ya müştərinin mövcud hesabından pul köçürmə sistemləri vasitəsilə köçürmələr nəzərə alınır.

3.1.9. "Bank tərəfindən istifadə olunan pul köçürmə sistemləri vasitəsilə aparılan əməliyyatların regionlar üzrə bölgüsü haqqında statistik hesabat" formasında (Forma ÖS-Bank-9 – Əlavə №9) pul köçürmə sistemləri (yerli və xarici) vasitəsilə hesabat dövrü ərzində cəmi, o cümlədən xarici valyutada (xarici valyutada aparılan əməliyyatların manat ekvivalenti) banka daxilolmalar və bankdan kənara köçürmələrin regionlar üzrə sayı və həcmi əks olunur:

3.1.9.1. hesabat formasında pul köçürmə sistemləri vasitəsilə yalnız regional mənsubiyyəti müəyyən oluna bilən ödəniş üsulu ilə (baş ofis, əməliyyat bölmələri və ödəniş agentlərinə yaxınlaşmaqla, ödəniş terminalı vasitəsilə, digər) həyata keçirilən əməliyyatlar əks olunur.

3.1.10. "Banka məxsus ödəniş xidməti şəbəkəsində nağd pul vasitəsilə ödəniş əməliyyatlarının təyinatı haqqında statistik hesabat" formasında (Forma ÖS-Bank-10 – Əlavə №10) hesabat dövrü üzrə banka məxsus bankomatlar və özünəxidmət terminallarında nağd pul vasitəsilə ödənişlərin təyinatına görə sayı və həcmi haqqında məlumatlar əks olunur:

3.1.10.1. hesabat formasında bankomatlar və özünəxidmət terminalları üzrə ödəniş əməliyyatları Bakı şəhəri və regionlar üzrə təsnifləşdirilir.

3.1.11. "Bankın emissiya etdiyi elektron pul və banka məxsus ödəniş xidməti şəbəkəsində ödəniş xidməti təchizatçılarının emissiya etdiyi elektron pul vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar haqqında statistik hesabat" forması (Forma ÖS-Bank-11 – Əlavə №11) "Bankın emissiya etdiyi elektron pul vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar haqqında statistik hesabat" (ÖS-Bank-11.1), "Banka məxsus ödəniş xidməti şəbəkəsində ödəniş xidməti təchizatçılarının emissiya etdiyi elektron pul vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar haqqında statistik hesabat" (ÖS-Bank-11.2) və "Bankın emissiya etdiyi elektron pulun strukturu haqqında statistik hesabat" (ÖS-Bank-11.3) cədvəllərindən ibarətdir:

3.1.11.1. "Bankın emissiya etdiyi elektron pul vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar haqqında statistik hesabat" cədvəlində (ÖS-Bank-11.1) bankın emissiya etdiyi

elektron pul ilə aparılan əməliyyatların sayı və həcmi, o cümlədən özünə məxsus ödəniş xidməti şəbəkəsində aparılan əməliyyatların sayı və həcmi əks olunur;

3.1.11.1.1. cədvəlin "Bankın emissiya etdiyi elektron pul vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar" hissəsində kart əsaslı və kart əsaslı olmayan elektron pul vasitəsilə aparılan ölkədaxili və ölkəxarici əməliyyatlar təsnifləşdirilir;

3.1.11.1.2. hesabat formasının "Ümumi əməliyyatlar" hissəsində bankın emissiya etdiyi elektron pullar ilə həm banka, həm də digər ödəniş xidməti təchizatçılarına məxsus ödəniş xidməti şəbəkəsi üzrə aparılan əməliyyatlar əks etdirilir;

3.1.11.1.3. hesabat formasının "ondan özünə məxsus ödəniş xidməti şəbəkəsində aparılan əməliyyatlar" hissəsində bankın emissiya etdiyi elektron pul ilə yalnız banka məxsus ödəniş xidməti şəbəkəsində aparılan əməliyyatlar əks etdirilir;

3.1.11.1.4. hesabat formasında ölkə xaricində əməliyyatların sayı və həcmi ödəniş terminalları (bankomatlar, POS-terminallar və özünəxidmət terminalları) vasitəsilə nağd pulun çıxarılması, ödənişlərin həyata keçirilməsi, internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatlarından ibarətdir;

3.1.11.1.5. hesabat formasında ölkə daxilində əməliyyatların sayı və həcmi ölkədaxili ödəniş xidməti şəbəkəsi vasitəsilə aparılan əməliyyatların müvafiq olaraq sayı və həcminin cəmindən ibarətdir;

3.1.11.1.6. bankomatlar və POS-terminallar üzrə əməliyyatlar nağd (nağd pulun çıxarılması) və nağdsız (ödənişlərin həyata keçirilməsi) əməliyyatlar üzrə təsnifləşdirilir;

3.1.11.1.7. internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatları elektron ticarət vasitəsilə malın dəyərinin ödənilməsi, elektron ticarət vasitəsilə iş və ya xidmətlərin dəyərinin ödənilməsi, digər ödəniş kartına vəsaitin köçürülməsi, elektron pula vəsaitin köçürülməsi və ödəniş hesabına və ya alətinə vəsaitin köçürülməsi üzrə təsnifləşdirilir;

3.1.11.1.8. özünəxidmət terminalları ödənişlərin həyata keçirilməsi, ödəniş kartına vəsaitin köçürülməsi, elektron pula vəsaitin köçürülməsi və digər ödəniş hesabına və ya alətinə vəsaitin köçürülməsi üzrə təsnifləşdirilir;

3.1.11.2. "Banka məxsus ödəniş xidməti şəbəkəsində ödəniş xidməti təchizatçılarının emissiya etdiyi elektron pul vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar haqqında statistik hesabat" cədvəlində (Forma ÖS-Bank-11.2) hesabat dövrü üzrə banka məxsus ödəniş xidməti şəbəkəsində rezident və qeyri-rezident ödəniş xidməti təchizatçılarının emissiya etdiyi elektron pul (həmçinin bankın emissiya etdiyi elektron pullar daxil olmaqla) ilə aparılan əməliyyatların sayı və həcmi ödəniş növləri (nağd pulun çıxarılması və ödənişlərin həyata keçirilməsi) və ödəniş sistemləri üzrə təsnifləşdirilir;

3.1.11.2.1. rezident və qeyri-rezident ödəniş xidməti təchizatçılarının emissiya etdiyi elektron pullar ilə aparılan əməliyyatlar bankın xidmət şəbəkəsi və ödəniş sistemləri üzrə təsnifləşdirilir;

3.1.11.3. "Bankın emissiya etdiyi elektron pulun strukturu haqqında statistik hesabat" cədvəlində (ÖS-Bank-11.3) bankın emissiya etdiyi elektron pullar üzrə dövrün sonuna elektron pul sahiblərinin sayı və elektron pulla əməliyyatların sayı və həcmi, həmçinin

dövrün sonuna elektron pulun qalıq dəyəri əks olunur. Elektron pullar istifadəçisi eyniləşdirilmiş və eyniləşdirilməmiş elektron pullar üzrə təsnifləşdirilir.

3.1.12. "Banka məxsus ödəniş terminallarında regionlar üzrə əməliyyatlar haqqında statistik hesabat" formasında (Forma ÖS-Bank-12 – Əlavə №12) hesabat dövrü ərzində banka məxsus bankomatlar, POS-terminallar, özünəxidmət terminallarında ödəniş kartı və nağd pul vasitəsilə əməliyyatların sayı və həcmi, o cümlədən istifadə edilən kartların sayı regionlar üzrə təsnifləşdirilir.

3.1.13. "Banka məxsus bankomatlarda ödəniş kartları vasitəsilə məxaric edilən nağd pul haqqında statistik hesabat" formasında (Forma ÖS-Bank-13 – Əlavə №13) hesabat dövrü ərzində banka məxsus bankomatlardan ödəniş kartları vasitəsilə məxaric edilən nağd pulun (kağız pul nişanları) Bakı şəhəri və regionlar üzrə sayı əks olunur.

3.1.14. "Banka məxsus ödəniş kartları ilə ölkə xaricində qeyri-rezident ödəniş xidməti təchizatçılarına məxsus xidmət şəbəkəsində aparılmış əməliyyatlar haqqında statistik hesabat" formasında (Forma ÖS-Bank-14 – Əlavə №14) hesabat dövrü ərzində banka məxsus ödəniş kartları vasitəsilə ölkə xaricində aparılmış nağd və nağdsız əməliyyatların sayı və həcmi ölkələr üzrə təsnifləşdirilir:

3.1.14.1. nağdsız əməliyyatlar internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə ölkə xaricində qeydiyyatdan keçmiş qeyri-rezident təsərrüfat subyektlərində aparılmış ödəniş əməliyyatları, POS-terminal və digər əməliyyatlar üzrə təsnifləşdirilir;

3.1.14.2. nağd əməliyyatlar ölkə xaricində qeyri-rezident ödəniş xidməti təchizatçılarına məxsus xidmət şəbəkəsində, o cümlədən bankomat, POS-terminal və digər şəbəkədə aparılmış nağdlaşdırma əməliyyatları üzrə təsnifləşdirilir.

3.1.15. "Banka məxsus xidmət şəbəkəsində qeyri-rezident ödəniş xidməti təchizatçılarına məxsus ödəniş kartları ilə aparılmış əməliyyatlar haqqında statistik hesabat" formasında (Forma ÖS-Bank-15 – Əlavə №15) hesabat dövrü ərzində banka məxsus xidmət şəbəkəsində qeyri-rezident ödəniş xidməti təchizatçılarına məxsus ödəniş kartları vasitəsilə aparılan nağd və nağdsız əməliyyatların sayı və həcmi ölkələr üzrə təsnifləşdirilir.

3.1.16. "Bankın cari hesab sahibi və ödəniş kartı istifadəçisi olan fiziki şəxs müştəriləri haqqında statistik hesabat" (Forma ÖS-Bank-16 – Əlavə №16) "Bankın fiziki şəxs müştəriləri haqqında statistik hesabat" (ÖS-Bank-16.1) və "Bankın FİN məlumatları əsasında eyniləşdirilən fiziki şəxs müştəriləri haqqında statistik hesabat" (ÖS-Bank-16.2) cədvəllərindən ibarətdir:

3.1.16.1. "Bankın fiziki şəxs müştəriləri haqqında statistik hesabat" formasında (ÖS-Bank-16.1) cari hesab sahibləri və kart istifadəçiləri eyniləşdirmə üsulundan asılı olaraq, FİN məlumatları əsasında eyniləşdirilən rezident fiziki şəxslər, FİN-i olmadıqda şəxsiyyəti təsdiq edən sənədin nömrəsi əsasında eyniləşdirilən rezident fiziki şəxslər və qeyri-rezident fiziki şəxslərin sayı üzrə təsnifləşdirilir;

3.1.16.2. "Bankın FİN məlumatları əsasında eyniləşdirilən fiziki şəxs müştəriləri haqqında statistik hesabat" formasında (ÖS-Bank-16.2) fiziki şəxs olan cari hesab və ödəniş kartı sahiblərinin FİN-nin (böyük hərflərdən ibarət olmalıdır) "SHA-2, 256bit" biristiqamətli

təhlükəsiz heş alqoritmi əsasında çevrilmiş (heşlənmiş) unikal heş (64 simvol) məlumatı əks etdirilir.

3.1.16.2.1. FİN-ə bağlı hesablar əmanət, cari hesablar, o cümlədən kreditlərin verilməsi məqsədilə açılan cari hesablar üzrə təsnifləşdirilir. FİN-ə bağlı müvafiq təsnifat üzrə hesab mövcud olduğu təqdirdə "+" işarəsi, olmadığı təqdirdə "-" işarəsi qeyd olunur;

3.1.16.2.1.1. Bir və ya bir neçə cari hesab üzrə hesabat dövrü ərzində ümumilikdə azı 3 (üç) məxaric əməliyyatı (nağd və ya nağdsız formada) aparılmışdırsa, FİN aktiv hesab olunur və müvafiq xanada "A" işarəsi qeyd edilir, aktiv hesab olunmayan FİN üzrə "P" işarəsi qeyd edilir;

3.1.16.2.1.1.1. "Cari hesab(lar) üzrə orta qalıq" hissəsində cari hesabın hesabat dövrü ərzində hər əməliyyat gününün sonuna olan qalıq məbləğinin cəminin həmin dövrdəki əməliyyat günlərinin sayına bölünməsi əsasında alınan göstərici qeyd edilir. Bir neçə cari hesab olduqda hesablar üzrə orta qalıqların cəmi qeyd edilir.

3.1.16.2.1.2. Əmanət hesabı və ya hesablarından (bir neçə hesab olduğu halda) azı birində saxlanılan vəsaitin qalığı üzrə gəlir əldə edilirsə, FİN aktiv hesab olunur və müvafiq xanada "A" işarəsi qeyd edilir, aktiv hesab olunmayan FİN üzrə "P" işarəsi qeyd edilir;

3.1.16.2.1.2.1. "Əmanət hesab(lar)ı üzrə qalıq" hissəsində hesabat dövrünün sonuncu təqvim gününə müvafiq hesabda saxlanılan vəsaitin məbləği qeyd edilir. Bir neçə əmanət hesabı olduqda, müvafiq hesablar üzrə qalıqlar cəmlənərək qeyd edilir;

3.1.16.2.1.3. Kreditlərin verilməsi məqsədilə açılan cari hesab və ya hesablardan (bir neçə hesab olduğu halda) azı biri üzrə qüvvədə olan kredit tələbi varsa, FİN aktiv hesab olunur və müvafiq xanada "A" işarəsi qeyd edilir, aktiv hesab olunmayan FİN üzrə "P" işarəsi qeyd edilir.

3.1.16.2.1.3.1. "Kredit tələb(lər)i üzrə qalıq" hissəsində hesabat dövrünün sonuncu təqvim gününə kredit müqaviləsi üzrə kredit məbləği və kredit üzrə tətbiq edilən faizlər və (və ya) müqavilədə göstərilən digər ödənişlər üzrə qalıq məbləği göstərilir. Bir neçə kredit tələbi olduqda, vəsaitlər cəmlənərək qeyd olunur;

3.1.16.2.2. FİN-ə bağlı ödəniş kartları debet və kredit kartları üzrə təsnifləşdirilir.

3.1.16.2.2.1. FİN-ə bağlı debet kartları sosial kartlar, əmək haqqı kartları və digər debet kartlar üzrə təsnifləşdirilir. FİN-ə bağlı müvafiq təsnifat üzrə debet kartı mövcud olduğu təqdirdə "+" işarəsi, olmadığı təqdirdə "-" işarəsi qeyd olunur. Müvafiq təsnifat üzrə FİN-ə bağlı bir və ya bir neçə debet kartı üzrə hesabat dövrü ərzində ümumilikdə azı 3 (üç) məxaric əməliyyatı (nağd və ya nağdsız formada) aparılmışdırsa, FİN aktiv hesab olunur və müvafiq xanada "A" işarəsi qeyd edilir, aktiv hesab olunmayan FİN üzrə "P" işarəsi qeyd edilir.

3.1.16.2.2.1.1. Debet kartların hər bir təsnifatı üzrə "kart üzrə orta qalıq" hissəsində hesabat dövrü üzrə hər əməliyyat gününün sonuna müvafiq ödəniş kartında olan məbləğin cəminin həmin dövrdəki əməliyyat günlərinin sayına bölünməsi əsasında alınan göstərici qeyd edilir. Müvafiq təsnifat üzrə bir neçə debet kartı olduqda hər bir ödəniş kartı üzrə qalıqlar cəmlənərək qeyd olunur;

3.1.16.2.2.2. FİN-ə bağlı bir və ya bir neçə kredit kartı üzrə hesabat dövrü ərzində ümumilikdə azı 3 (üç) məxaric əməliyyatı (nağd və ya nağdsız formada) aparılmışdırsa, FİN

aktiv hesab olunur və müvafiq xanada "A" işarəsi qeyd edilir, aktiv hesab olunmayan FİN üzrə "P" işarəsi qeyd edilir;

3.1.16.2.2.2.1. "Kredit tələbi üzrə qalıq" hissəsində hesabat dövrünün sonuncu təqvim gününə kredit kartına bağlı kredit müqaviləsi üzrə kredit məbləği və kredit üzrə tətbiq edilən faizlər və (və ya) müqavilədə göstərilən digər ödənişlər üzrə qalıq məbləği qeyd edilir. Bir neçə kredit kartı olduqda hər bir kredit kartı ilə bağlı kredit tələbi üzrə qalıqlar cəmlənərək qeyd olunur.

3.1.17. "Bankın hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxs müştəriləri haqqında statistik hesabat" (Forma ÖS-Bank-17 – Əlavə №17) "Bankın hüquqi şəxs müştəriləri haqqında statistik hesabat" (ÖS-Bank-17.1) və "Bankın hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxs müştəriləri haqqında statistik hesabat" (ÖS-Bank-17.2) cədvəllərindən ibarətdir:

3.1.17.1. "Bankın hüquqi şəxs müştəriləri haqqında statistik hesabat" (ÖS-Bank-17.1) formasında hüquqi şəxslərin VÖEN-i haqda məlumat əks etdirilir. VÖEN-ə bağlı bir və ya bir neçə ödəniş hesabı üzrə hesabat dövrü ərzində ümumilikdə azı 3 (üç) məxaric əməliyyatı (nağd və ya nağdsız formada) aparılmışdırsa, VÖEN aktiv hesab olunur və müvafiq xanada "A" işarəsi qeyd edilir, aktiv hesab olunmayan VÖEN üzrə "P" işarəsi qeyd edilir.

3.1.17.1.1. VÖEN-ə bağlı korporativ kart olduğu təqdirdə müvafiq xanada "+" işarəsi, olmadığı təqdirdə "-" işarəsi qeyd olunur. VÖEN-ə bağlı bir və ya bir neçə korporativ kart üzrə hesabat dövrü ərzində ümumilikdə azı 3 (üç) məxaric əməliyyatı (nağd və ya nağdsız formada) aparılmışdırsa, VÖEN aktiv hesab olunur və müvafiq xanada "A" işarəsi qeyd edilir, aktiv hesab olunmayan VÖEN üzrə "P" işarəsi qeyd edilir.

3.1.17.2. "Bankın hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxs müştəriləri haqqında statistik hesabat" (ÖS-Bank-17.2) formasında hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərin VÖEN-i haqda məlumat əks etdirilir. VÖEN-ə bağlı bir və ya bir neçə ödəniş hesabı üzrə hesabat dövrü ərzində ümumilikdə azı 3 (üç) məxaric əməliyyatı (nağd və ya nağdsız formada) aparılmışdırsa, VÖEN aktiv hesab olunur və müvafiq xanada "A" işarəsi qeyd edilir, aktiv hesab olunmayan VÖEN üzrə "P" işarəsi qeyd edilir.

3.1.17.2.1. VÖEN-ə bağlı korporativ kart olduğu təqdirdə müvafiq xanada "+" işarəsi, olmadığı təqdirdə "-" işarəsi qeyd olunur. VÖEN-ə bağlı bir və ya bir neçə korporativ kart üzrə hesabat dövrü ərzində ümumilikdə azı 3 (üç) məxaric əməliyyatı (nağd və ya nağdsız formada) aparılmışdırsa, VÖEN aktiv hesab olunur və müvafiq xanada "A" işarəsi qeyd edilir, aktiv hesab olunmayan VÖEN üzrə "P" işarəsi qeyd edilir.

3.2. ÖS-Bank-4, ÖS-Bank-7, ÖS-Bank-10, ÖS-Bank-13 hesabat formalarında Bakı şəhəri üzrə göstəricilərə digər iqtisadi rayonlar üzrə göstəricilər aid edilməməlidir.

3.3. Bankların fırıldaqçılıq əməliyyatları üzrə təqdim etdikləri hesabatların məzmunu və tərtib edilməsi qaydası bu Təlimatın 7-ci hissəsində müəyyənləşdirilir.

## 4. Qeyri-bank ödəniş xidməti təchizatçıları tərəfindən təqdim olunan hesabatların məzmunu və tərtib edilməsi

4.1. Qeyri-bank ödəniş xidməti təchizatçılarının ödəniş statistikası üzrə hesabatı (bundan sonra – ÖS-ÖXT hesabatı) aşağıdakı statistik formalardan ibarətdir:

4.1.1. "Elektron pul təşkilatının emissiya etdiyi elektron pul (kart əsaslı və kart əsaslı olmayan elektron pul) vasitəsilə aparılan əməliyyatlar haqqında statistik hesabat" formasında (Forma ÖS-ÖXT-1 – Əlavə №18) elektron pul təşkilatının emissiya etdiyi kart əsaslı və kart əsaslı olmayan (şəbəkə əsaslı) elektron puldan istifadə edilməklə ölkədaxili və ölkə xaricində aparılan əməliyyatların hesabat dövrü üzrə sayı və həcmi haqqında məlumatlar əks olunur:

4.1.1.1. hesabat formasının "Ümumi əməliyyatlar" hissəsində elektron pul təşkilatının emissiya etdiyi elektron pul ilə həm elektron pul təşkilatına, həm də digər ödəniş xidməti təchizatçılarına məxsus ödəniş xidməti şəbəkəsində aparılan əməliyyatlar əks etdirilir;

4.1.1.2. hesabat formasının "ondan özünə məxsus ödəniş xidməti şəbəkəsində aparılan əməliyyatlar" hissəsində elektron pul təşkilatının emissiya etdiyi elektron puldan istifadə edilməklə yalnız elektron pul təşkilatının özünə məxsus ödəniş xidməti şəbəkəsində aparılan əməliyyatlar əks etdirilir;

4.1.1.3. hesabat formasında ölkə xaricində aparılmış əməliyyatların sayı və həcmi ödəniş terminalları vasitəsilə nağd pulun çıxarılması, ödəniş terminalları vasitəsilə ödənişlərin həyata keçirilməsi, internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatları (ondan elektron ticarət vasitəsilə malın dəyərinin ödənilməsi, elektron ticarət vasitəsilə iş və ya xidmətlərin dəyərinin ödənilməsi, digər ödəniş hesablarına və ödəniş alətlərinə vəsaitin köçürülməsi, o cümlədən ödəniş kartına vəsaitin köçürülməsi olmaqla) üzrə əməliyyatların müvafiq olaraq sayı və həcminin cəmindən ibarətdir;

4.1.1.4. hesabat formasında ölkə daxilində aparılan əməliyyatların sayı və həcmi bankomatlar, POS-terminallar, internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə, özünəxidmət terminalları vasitəsilə aparılan ödəniş əməliyyatlarının, həmçinin sadalanan qruplara aid edilməyən digər əməliyyatların sayı və həcmindən ibarətdir;

4.1.1.4.1. hesabat formasının "Bankomatlar üzrə aparılan əməliyyatlar" hissəsi bankomatlar vasitəsilə nağd pulun çıxarılması, bankomatlar vasitəsilə ödənişlərin həyata keçirilməsi, o cümlədən ödəniş kartına vəsaitin köçürülməsi, elektron pula vəsaitin köçürülməsi və digər əməliyyatlar olmaqla təsnifləşdirilir.

4.1.1.4.2. hesabat formasının "POS-terminallar üzrə aparılan əməliyyatlar" hissəsi POS-terminallar vasitəsilə ödəniş xidməti təchizatçılarında nağd pulun çıxarılması, POS-terminallar vasitəsilə təsərrüfat subyektlərində (ödəniş xidməti təchizatçılarından kənar) nağd pulun çıxarılması və POS-terminallar vasitəsilə ödənişlərin həyata keçirilməsi, o cümlədən POS-terminallar üzrə təmassız ödənişlər, POS-terminallar üzrə müştəri eyniləşdirilməklə aparılan təmassız ödənişlər, POS-terminallar üzrə müştəri eyniləşdirilmədən aparılan təmassız ödənişlər olmaqla təsnifləşdirilir;

4.1.1.4.3. hesabat formasının "İnternet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatları" hissəsində elektron ticarət vasitəsilə mal, iş və ya xidmətlərin dəyərinin ödənilməsi, ödəniş hesablarına və ödəniş alətlərinə (o cümlədən

ödəniş kartına və elektron pula) vəsaitin köçürülməsi və digər əməliyyatlar olmaqla təsnifləşdirilir;

4.1.1.4.4. hesabat formasının "Özünəxidmət terminalları üzrə əməliyyatlar" hissəsi özünəxidmət terminalları vasitəsilə ödənişlərin həyata keçirilməsi, ödəniş hesablarına və alətlərinə vəsaitin köçürülməsi (o cümlədən ödəniş kartına və elektron pula) vəsaitin köçürülməsi və digər əməliyyatlar olmaqla təsnifləşdirilir;

4.1.2. "Qeyri-bank ödəniş xidməti təchizatçısına məxsus ödəniş xidməti şəbəkəsində aparılan əməliyyatların təyinatı haqqında statistik hesabat" formasında (Forma ÖS-ÖXT-2 – Əlavə №19) qeyri-bank ödəniş xidməti təchizatçısına məxsus ödəniş xidməti şəbəkəsində nağd pul vasitəsilə və nağdsız aparılan əməliyyatlar olmaqla mal, iş və ya xidmətlərin dəyərinin ödənilməsi və digər məqsədlə aparılan ödənişlərin təyinatı təsərrüfat subyektinin kateqoriya koduna əsasən qeyd olunur:

4.1.2.1. hesabat formasında əməliyyatların sayı və həcmi bankomatlar, POS-terminallar, özünəxidmət terminalları, internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsi ilə aparılan ödəniş əməliyyatları üzrə təsnifləşdirilir.

4.1.3. "Qeyri-bank ödəniş xidməti təchizatçısına məxsus ödəniş xidməti şəbəkəsinin regionlar üzrə yerləşdirilməsi haqqında statistik hesabat" formasında (Forma ÖS-ÖXT-3 – Əlavə №20) qeyri-bank ödəniş xidməti təchizatçısına məxsus quraşdırılmış və istismara verilmiş bankomatların, POS-terminalların və özünəxidmət terminallarının fiziki yerləşdiyi, elektron ticarət üzrə isə quraşdırılmış virtual POS-terminalların qeydiyyata alındığı müvafiq region üzrə sayı göstərilir:

4.1.3.1. bankomatlar nağd pul qəbul etmə (cash-in) və təmassız ödənişləri qəbul etmə funksiyasına əsasən təsnifləşdirilir;

4.1.3.2. POS-terminallar qeyri-bank ödəniş xidməti təchizatçısının baş ofis, əməliyyat bölmələri və ödəniş agentlərində və ya ticarət, ictimai iaşə və xidmət müəssisələrində quraşdırılmasına əsasən əks olunur. Ticarət, ictimai iaşə və xidmət müəssisələrində quraşdırılmış POS-terminallar mobil POS-terminallar (Tap to Phone) və dövr ərzində aktiv istifadə edilməsinə əsasən təsnifləşdirilir. Ay ərzində azı 4 (dörd) ödəniş əməliyyatı icra olunan POS-terminal dövr ərzində aktiv istifadə edilən POS-terminal hesab olunur;

4.1.3.3. özünəxidmət terminalları ödənişləri ödəniş kartı ilə qəbul etmə funksiyasına əsasən təsnifləşdirilir.

4.1.4. "Elektron pul sahibləri və onların apardığı əməliyyatlar haqqında statistik hesabat" formasında (Forma ÖS-ÖXT-4 – Əlavə №21) elektron pul sahiblərinin dövrün sonuna olan sayı, hesabat dövrü ərzində aparılan əməliyyatların sayı və həcmi əks etdirilir:

4.1.4.1. hesabat formasının "Məxaric əməliyyatları aparmış elektron pul sahibləri" hissəsi kart əsaslı və kart əsaslı olmayan (şəbəkə əsaslı) elektron pul üzrə olmaqla eyniləşdirilən və eyniləşdirilməyən elektron pul sahibləri üzrə təsnifləşdirilir;

4.1.4.2. hesabat formasının "Məxaric əməliyyatları aparmış elektron pul sahiblərinin hüquqi statusu" hissəsi hüquqi şəxslər və fiziki şəxslər, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslər üzrə təsnifləşdirilir;

4.1.4.3. hesabat formasının "Elektron pula ödəniş alətləri üzrə mədaxil" hissəsi nağd pul, ödəniş kartları, kredit köçürməsi, digər elektron pullar və sadalananlara aid edilməyən digər vasitələrlə aparılan əməliyyatlar üzrə təsnifləşdirilir;

4.1.4.4. hesabat formasının "Elektron pula qeyri-bank ödəniş xidməti təchizatçısının ödəniş xidməti şəbəkəsi vasitəsi ilə mədaxil" hissəsi ödəniş terminalları, internet səhifə, mobil tətbiq və sadalananlara aid edilməyən digər vasitələrlə aparılan əməliyyatlar üzrə təsnifləşdirilir;

4.1.4.5. hesabat formasının "Elektron pullar vasitəsilə aparılan ödənişlərin təyinatı" hissəsində ödəniş əməliyyatları təsərrüfat subyektinin kateqoriya koduna uyğun olaraq qeyd olunur;

4.1.4.6. hesabat formasının "Elektron pulun qalıq dəyərinin geri qaytarılması" hissəsində nağd pulun çıxarılması (o cümlədən bankomat, qeyri-bank ödəniş xidməti təchizatçısının baş ofis və əməliyyat bölmələri, ödəniş agentləri və digər üsullardan istifadə etməklə) və ya ödəniş hesabına köçürmə (o cümlədən hüquqi şəxslər, fiziki şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslər) qeyd olunur;

4.1.4.7. hesabat formasının "Dövrün sonuna elektron pulun qalıq dəyəri" hissəsində dövrün sonuna qeyri-bank ödəniş xidməti təchizatçısında xidmət göstərilən elektron pul sahiblərinin elektron pullarının qalıq dəyəri əks etdirilir.

4.1.5. "Qeyri-bank ödəniş xidməti təchizatçısının ödəniş xidməti istifadəçiləri və onların apardığı əməliyyatlar haqqında statistik hesabat" formasında (Forma ÖS-ÖXT-5 – Əlavə №22) ödəniş xidməti istifadəçilərinin dövrün sonuna olan sayı, hesabat dövrü ərzində aparılan əməliyyatların sayı və həcmi əks etdirilir:

4.1.5.1. hesabat formasının "Məxaric əməliyyatları aparmış ödəniş xidməti istifadəçiləri" hissəsi eyniləşdirilən və eyniləşdirilməyən istifadəçilər üzrə təsnifləşdirilir;

4.1.5.2. hesabat formasının "Məxaric əməliyyatları aparmış ödəniş xidməti istifadəçilərinin hüquqi statusu" hissəsində ödəniş xidməti istifadəçiləri hüquqi şəxslər, fiziki şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslər üzrə təsnifləşdirilir;

4.1.5.3. hesabat formasının "Ödəniş hesablarına ödəniş alətləri üzrə mədaxil" hissəsi nağd pul, ödəniş kartları, kredit köçürməsi, elektron pula və sadalananlara aid edilməyən digər vasitələr üzrə təsnifləşdirilir;

4.1.5.4. hesabat formasının "Ödəniş hesablarına qeyri-bank ödəniş xidməti təchizatçısının ödəniş xidməti şəbəkəsi vasitəsilə mədaxil" hissəsi ödəniş terminalları, internet səhifə, mobil tətbiq və sadalananlara aid edilməyən digər vasitələr üzrə təsnifləşdirilir;

4.1.5.5. hesabat formasının "Ödəniş hesabları və ödəniş alətləri (elektron pul istisna olmaqla) ilə aparılan ödənişlərin təyinatı" hissəsində həyata keçirilmiş ödənişlər təsərrüfat subyektinin kateqoriya koduna uyğun olaraq təsnifləşdirilir.

4.1.6. "Qeyri-bank ödəniş xidməti təchizatçısı tərəfindən istifadə olunan pul köçürmə sistemləri vasitəsilə aparılan əməliyyatlar haqqında statistik hesabat" formasında (Forma ÖS-ÖXT-6 – Əlavə №23) pul köçürmə sistemləri vasitəsilə milli və xarici valyutada (xarici

valyutada aparılan əməliyyatların manat ekvivalenti) olmaqla qeyri-bank ödəniş xidməti təchizatçısına daxilolmalar və qeyri-bank ödəniş xidməti təchizatçısından kənara köçürmələrin sayı və həcmi əks olunur:

4.1.6.1. hesabat formasında pul köçürmə sistemləri vasitəsilə qeyri-bank ödəniş xidməti təchizatçısına daxilolmalar və qeyri-bank ödəniş xidməti təchizatçısından kənara köçürmələr pul köçürmə sistemlərinin adları, ölkədaxili və ölkəxarici, həmçinin ödəniş üsulu üzrə təsnifləşdirilir;

4.1.6.2. qeyri-bank ödəniş xidməti təchizatçısına daxilolmaların ödəniş xidməti istifadəçilərinin sərəncamına verilməsi üzrə baş ofis, əməliyyat bölmələri və ödəniş agentlərinə yaxınlaşmaqla, elektron üsullarla (internet səhifəsi, mobil tətbiq), ödəniş terminalı vasitəsilə və digər üsullar olmaqla təsnifləşdirilir. Qeyri-bank ödəniş xidməti təchizatçısından kənara köçürmələrin həyata keçirilməsi üzrə baş ofis, əməliyyat bölmələri və ödəniş agetlərinə yaxınlaşmaqla, elektron üsullarla (internet səhifəsi, mobil tətbiq), ödəniş terminalı vasitəsilə (o cümlədən nağd pulun daxil edilməsi və ödəniş alətləri vasitəsilə) və digər üsullar olmaqla təsnifləşdirilir;

4.1.6.3. hesabat formasında pul köçürmə sistemləri vasitəsilə qeyri-bank ödəniş xidməti təchizatçısına daxilolmalar və qeyri-bank ödəniş xidməti təchizatçısından kənara köçürmələr pul köçürmə sistemlərinin siyahıdakı adlarına uyğun təsnifləşdirilir. Siyahıda adı əks olunmayan hər hansı digər pul köçürmə sistemi vasitəsilə qeyri-bank ödəniş xidməti təchizatçısına daxilolmalar və qeyri-bank ödəniş xidməti təchizatçısından kənara köçürmələr həyata keçirildikdə həmin əməliyyatlar “digər” seçimində əks olunmalıdır;

4.1.6.4. hesabat formasında hesab açmadan və ya müştərinin mövcud hesabından müştərinin göstərişi ilə pul köçürmə sistemləri vasitəsilə aparılan köçürmə əməliyyatları nəzərə alınmalıdır;

4.1.7. “Ödəniş əməliyyatının aparılması üçün vasitəçilik və hesab üzrə məlumat xidməti istifadəçiləri haqqında statistik hesabat” formasında (Forma ÖS-ÖXT-7 – Əlavə №24) ödəniş əməliyyatının aparılması üçün vasitəçilik və hesab üzrə məlumat xidmətləri istifadəçilərinin sayı əks etdirilir.

4.1.8. “Qeyri-bank ödəniş xidməti təchizatçısı tərəfindən ödəniş əməliyyatının aparılması üçün qəbul edilmiş pul vəsaitinin saxlandığı hesabların dövriyyəsi və qalıqları haqqında statistik hesabat” formasında (Forma ÖS-ÖXT-8 - Əlavə №25) hesabat dövrü üzrə qeyri-bank ödəniş xidməti təchizatçısı tərəfindən ödəniş əməliyyatının aparılması üçün qəbul edilmiş pul vəsaitinin saxlandığı hesabların aid olduğu bankın adı və hesab nömrəsi qeyd edilməklə dövriyyəsi və qalıqları haqqında məlumat əməliyyat günləri üzrə əks etdirilir. Qeyri-bank ödəniş xidməti təchizatçısının ödəniş əməliyyatının aparılması üçün qəbul edilmiş pul vəsaiti bir neçə ayrı hesabda saxlanarsa müvafiq hesabat hər bir hesab üzrə ayrıca təqdim edilməlidir.

4.1.9. “Qeyri-bank ödəniş xidməti təchizatçısının elektron pul və ödəniş hesabı sahibi olan eyniləşdirilmiş fiziki şəxs müştəriləri haqqında statistik hesabat” forması (Forma ÖS-ÖXT-9 – Əlavə №26) “Qeyri-bank ödəniş xidməti təchizatçısının eyniləşdirilmiş fiziki şəxs müşləriləri haqqında statistik hesabat” (ÖS-ÖXT-9.1) və “Qeyri-bank ödəniş xidməti

təchizatçısının FİN məlumatları əsasında eyniləşdirilən fiziki şəxs müştərilərindən ödəniş hesabı sahibləri olan şəxslər haqqında statistik hesabat" (ÖS-ÖXT-9.2) cədvəllərindən ibarətdir:

4.1.9.1. "Qeyri-bank ödəniş xidməti təchizatçısının eyniləşdirilmiş fiziki şəxs müştəriləri haqqında statistik hesabat"da (ÖS-ÖXT-9.1) qeyri-bank ödəniş xidməti təchizatçısında xidmət olunan ödəniş hesabı və elektron pul sahibləri eyniləşdirmə üsulundan asılı olaraq, FİN məlumatları əsasında eyniləşdirilən rezident fiziki şəxslərin, FİN-i olmadıqda şəxsiyyəti təsdiq edən sənədin nömrəsi əsasında eyniləşdirilən rezident fiziki şəxslərin və qeyri-rezident fiziki şəxslərin sayı üzrə təsnifləşdirilir;

4.1.9.2. "Qeyri-bank ödəniş xidməti təchizatçısının FİN məlumatları əsasında eyniləşdirilən fiziki şəxs müştərilərindən ödəniş hesabı sahibləri olan şəxslər haqqında statistik hesabat" formasında (ÖS-ÖXT-9.2) cari hesab sahibi olan fiziki şəxs ödəniş xidməti istifadəçilərinin FİN-nin (böyük hərflərdən ibarət olmalıdır) "SHA-2, 256bit" biristiqamətli təhlükəsiz heş alqoritmi əsasında çevrilmiş (heşlənmiş) unikal heş (64 simvol) məlumatı əks etdirilir. FİN-ə bağlı bir və ya bir neçə ödəniş hesabı üzrə hesabat dövrü ərzində ümumilikdə azı 3 (üç) məxaric əməliyyatı (nağd və ya nağdsız formada) aparılmışdırsa, FİN aktiv hesab olunur və müvafiq xanada "A" işarəsi qeyd edilir, aktiv hesab olunmayan FİN üzrə "P" işarəsi qeyd edilir.

4.1.9.2.1. "Ödəniş hesab(lar)ında olan elektron pul üzrə orta qalıq" hissəsində elektron pulun saxlandığı ödəniş hesabının hesabat dövrü ərzində hər əməliyyat gününün sonuna qalıq məbləğinin cəminin həmin dövrdəki əməliyyat günlərinin sayına bölünməsi əsasında alınan göstərici qeyd edilir. Bir neçə ödəniş hesabı olduqda hesablar üzrə orta qalıqların cəmi qeyd olunur.

4.1.10. "Qeyri-bank ödəniş xidməti təchizatçısının hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxs müştəriləri haqqında statistik hesabat" formasında (Forma ÖS-ÖXT-10 – Əlavə №27) hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərin VÖEN-i haqqında məlumat əks etdirilir. VÖEN-ə bağlı bir və ya bir neçə ödəniş hesabı üzrə hesabat dövrü ərzində ümumilikdə azı 3 (üç) məxaric əməliyyatı (nağd və ya nağdsız formada) aparılmışdırsa, VÖEN aktiv hesab olunur və müvafiq xanada "A" işarəsi qeyd edilir, aktiv hesab olunmayan VÖEN üzrə "P" işarəsi qeyd edilir.

4.2. Qeyri-bank ödəniş xidməti təchizatçılarının fırıldaqçılıq əməliyyatları üzrə təqdim etdikləri hesabatların məzmunu və tərtib edilməsi qaydası bu Təlimatın 7-ci hissəsində müəyyənləşdirilir.

## 5. Operatorlar tərəfindən təqdim olunan hesabatların məzmunu və tərtib edilməsi

5.1. Operatorların ödəniş statistikası üzrə hesabatı (bundan sonra – ÖS-ÖSO hesabatı) aşağıdakı statistik formalardan ibarətdir:

5.1.1. "Operatorun xidmət göstərdiyi iştirakçıların emissiya etdiyi ödəniş alətləri vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar haqqında statistik hesabat" forması

(Forma ÖS-ÖSO-1 – Əlavə №28) "Operatorun xidmət göstərdiyi iştirakçıların emissiya etdiyi ödəniş kartları vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar haqqında statistik hesabat" (ÖSO-1.1) və "Operatorun xidmət göstərdiyi iştirakçıların emissiya etdiyi elektron pul vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar haqqında statistik hesabat" cədvəllərindən (ÖSO-1.2) ibarətdir.

5.1.1.1. "Operatorun xidmət göstərdiyi iştirakçıların emissiya etdiyi ödəniş kartları vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar haqqında statistik hesabat" formasında (ÖSO-1.1) hesabat dövrü üzrə operatorun xidmət göstərdiyi ödəniş sistemi iştirakçıların emissiya etdiyi ödəniş kartları ilə ölkədaxili və ölkə xaricində aparılmış əməliyyatların sayı və həcmi haqqında məlumatlar əks olunur:

5.1.1.1.1. hesabat formasında ölkə xaricində aparılmış əməliyyatların sayı və həcmi ödəniş terminalları vasitəsilə nağd pulun çıxarılması, ödəniş terminalları vasitəsilə ödənişlərin həyata keçirilməsi və internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatlarının müvafiq olaraq sayı və həcminin cəmindən ibarətdir;

5.1.1.1.2. hesabat formasında ölkə daxilində aparılan əməliyyatların sayı və həcmi bankomatlar, POS-terminallar, internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə, özünəxidmət terminalları vasitəsilə aparılan ödəniş əməliyyatları, həmçinin sadalanan qruplara aid edilməyən digər əməliyyatlardan ibarətdir:

5.1.1.1.2.1. hesabat formasının "Bankomatlar üzrə aparılan əməliyyatlar" hissəsində bankomatlar vasitəsilə nağd pulun çıxarılması, bankomatlar vasitəsi ödənişlərin həyata keçirilməsi və bankomatlar vasitəsilə aparılan digər əməliyyatlar əks etdirilir;

5.1.1.1.2.2. hesabat formasının "POS-terminallar üzrə aparılan əməliyyatlar" hissəsində POS-terminallar vasitəsilə nağd pulun çıxarılması əməliyyatları, POS-terminallar vasitəsilə ödənişlər, o cümlədən POS-terminallar üzrə təmassız ödənişlər və POS-terminallarla aparılan digər əməliyyatlar əks etdirilir;

5.1.1.1.2.3. hesabat formasının "İnternet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatları" hissəsində internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan nağdsız əməliyyatlar əks etdirilir;

5.1.1.1.2.4. hesabat formasının "Özünəxidmət terminalları üzrə aparılan əməliyyatlar" hissəsində özünəxidmət terminalları vasitəsilə aparılan əməliyyatlar əks etdirilir.

5.1.1.2. "Operatorun xidmət göstərdiyi iştirakçıların emissiya etdiyi elektron pul vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar haqqında statistik hesabat" formasında (ÖSO-1.2) hesabat dövrü üzrə operatorun xidmət göstərdiyi ödəniş sistemi iştirakçıların emissiya etdiyi elektron pul ilə ölkədaxili və ölkə xaricində aparılmış əməliyyatların sayı və həcmi haqqında məlumatlar əks olunur:

5.1.1.2.1. hesabat formasında ölkə xaricində aparılmış əməliyyatların sayı və həcmi ödəniş terminalları vasitəsilə nağd pulun çıxarılması, ödəniş terminalları vasitəsilə ödənişlərin həyata keçirilməsi və internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatlarının müvafiq olaraq sayı və həcminin cəmindən ibarətdir;

5.1.1.2.2. hesabat formasında ölkə daxilində aparılan əməliyyatların sayı və həcmi bankomatlar, POS-terminallar, internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə, özünəxidmət terminalları vasitəsilə aparılan ödəniş əməliyyatlarının, həmçinin sadalanan qruplara aid edilməyən digər əməliyyatların müvafiq olaraq sayı və həcmindən ibarətdir;

5.1.1.2.2.1. hesabat formasının "Bankomatlar üzrə aparılan əməliyyatlar" hissəsində bankomatlar vasitəsilə nağd pulun çıxarılması, bankomatlar vasitəsi ilə ödənişlərin həyata keçirilməsi və bankomatlar vasitəsilə aparılan digər əməliyyatlar əks etdirilir;

5.1.1.2.2.2. hesabat formasının "POS-terminallar üzrə aparılan əməliyyatlar" hissəsində POS-terminallar vasitəsilə nağd pulun çıxarılması, POS-terminallar vasitəsilə ödənişlərin həyata keçirilməsi, o cümlədən POS-terminallar üzrə təmassız ödənişlər və POS-terminallarla aparılan digər əməliyyatlar əks etdirilir;

5.1.1.2.2.3. hesabat formasının "İnternet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatları" hissəsində internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan nağdsız əməliyyatlar əks etdirilir;

5.1.1.2.2.4. hesabat formasının "Özünəxidmət terminalları üzrə əməliyyatlar" hissəsində özünəxidmət terminalları vasitəsilə aparılan əməliyyatlar əks etdirilir.

5.1.2. "Operatorun xidmət göstərdiyi iştirakçıların emissiya etdiyi ödəniş kartları ilə aparılan maliyyə və qeyri-maliyyə əməliyyatları haqqında statistik hesabat" formasında (Forma ÖS-ÖSO-2 – Əlavə №29) hesabat dövrü ərzində operatorun xidmət göstərdiyi iştirakçıların emissiya etdiyi ödəniş kartları ilə aparılan avtorizasiya edilmiş uğurlu və uğursuz maliyyə və qeyri-maliyyə əməliyyatlarının növü üzrə sayı və həcmi əks etdirilir;

5.1.2.1. Operatorun xidmət göstərdiyi iştirakçıların emissiya etdiyi ödəniş kartları ilə ödəniş sistemi iştirakçılarının öz şəbəkəsində, operatorun daxilində (iştirakçının öz şəbəkəsində aparılan əməliyyatlar istisna olmaqla), ölkə daxilində və ölkə xaricində aparılmış əməliyyatlar avtorizasiya edilmiş əməliyyatlar maliyyə və qeyri-maliyyə əməliyyatlarına bölünür;

5.1.2.1.1. avtorizasiya edilmiş maliyyə əməliyyatları növünə görə aşağıdakı kimi təsnifləşdirilir:

5.1.2.1.1.1. kartdan karta kreditləşmə əməliyyatı (P2P credit) – kartdan karta köçürmə əməliyyatı üzrə hesabdan vəsaitin silinməsi əməliyyatı;

5.1.2.1.1.2. kartdan karta debitləşmə əməliyyatı (P2P debit) – kartdan karta köçürmə əməliyyatı üzrə hesaba vəsaitin daxil olunması əməliyyatı;

5.1.2.1.1.3. bankomatlar vasitəsilə mədaxil əməliyyatı (Deposit) – bankomat vasitəsilə hesaba mədaxil (cash-in) əməliyyatı;

5.1.2.1.1.4. nağdlaşdırma əməliyyatı (Cash) – bankomat vasitəsilə nağd vəsaitin çıxarılması əməliyyatı;

5.1.2.1.1.5. kvazi-nağd əməliyyat (Quasi cash) – kartlardan elektron pula, mərc oyunlarına, birjalara köçürmələr;

5.1.2.1.1.6. ödəniş əməliyyatı (Purchase) – POS-terminal vasitəsilə malların, işlərin və xidmətlərin ödənilməsi əməliyyatı;

5.1.2.1.1.7. təyin olunmuş məntəqələrdə vəsaitin nağdlaşdırılması əməliyyatı (Manual cash) – ödəniş xidməti təchizatçılarının filiallarında və yaxud ödəniş xidməti təchizatçıları tərəfindən təyin olunmuş məntəqələrdə kartda olan vəsaitin POS-terminal vasitəsilə nağdlaşdırma əməliyyatı;

5.1.2.1.1.8. müştərinin istəyi ilə malın alışı üzrə vəsaitin geri qaytarılması əməliyyatı (Refund) – uğurlu əməliyyat üzrə ödənilən vəsaitin ödəyiciyə tam və ya qismən qaytarılması üçün icra edilən əməliyyat növü;

5.1.2.1.1.9. digər maliyyə əməliyyatları – sadalanan maliyyə əməliyyatları növünə aid olmayan digər əməliyyatlar.

5.1.2.1.1.2. avtorizasiya edilmiş qeyri-maliyyə əməliyyatları növünə görə aşağıdakı kimi təsnifləşdirilir:

5.1.2.1.1.2.1. balansın yoxlanışı əməliyyatı (Balance inquiry) – kart hesabı üzrə mövcud balansın sorğulanması əməliyyatı;

5.1.2.1.1.2.2. hesab üzrə tam çıxarış (Full account statement request) – müəyyən dövrü əhatə edən ödəniş kartı üzrə icra edilmiş bütün maliyyə əməliyyatlarını əks etdirən hesabdan çıxarışın əldə edilməsi əməliyyatı;

5.1.2.1.1.2.3. hesab üzrə yığcam çxarış (Mini statement) – ödəniş kartı üzrə icra edilmiş son bir neçə maliyyə əməliyyatını əks etdirən hesabdan çıxarışın əldə edilməsi əməliyyatı;

5.1.2.1.1.2.4. PİN-in dəyişdirilməsi əməliyyatı (PIN change) – ödəniş kartına təyin edilmiş şəxsi eyniləşdirmə nömrəsinin dəyişdirilməsi əməliyyatı;

5.1.2.1.1.2.5. digər qeyri-maliyyə əməliyyatları – sadalanan qeyri-maliyyə əməliyyatı növünə aid olmayan digər əməliyyatlar.

5.1.2.2. avtorizasiya edilmiş maliyyə və qeyri-maliyyə əməliyyatları uğursuz əməliyyatlarının sayı, uğurlu əməliyyatların sayı və həcmi üzrə təsnifləşdirilir.

5.2.2.1. əməliyyatlar aparıldığı ödəniş xidməti şəbəkəsinə (məkana) görə aşağıdakı kimi təsnifləşdirilir:

5.1.2.2.1.1. "İştirakçıların öz şəbəkəsində aparılmış əməliyyatlar" – bu hissə operatorun xidmət göstərdiyi iştirakçının emissiya etdiyi ödəniş kartları ilə onun özünə məxsus ödəniş xidməti şəbəkəsində aparılmış bütün əməliyyatları əhatə edir.

5.1.2.2.1.2. "Operatorun daxilində aparılmış əməliyyatlar" – bu hissə operatorun xidmət göstərdiyi iştirakçılar tərəfindən emissiya edilmiş ödəniş kartları ilə operatorun xidmət göstərdiyi digər iştirakçıların ödəniş xidməti şəbəkəsində aparılmış bütün əməliyyatları əhatə edir.

5.1.2.2.1.3. "Ölkədaxili əməliyyatlar" – bu hissə operatorun xidmət göstərdiyi iştirakçılar tərəfindən emissiya edilmiş ödəniş kartları ilə ölkədə fəaliyyət göstərən digər ödəniş xidməti təchizatçılarının (5.1.2.2.1.1-ci və 5.1.2.2.1.2-ci alt bəndlərdə nəzərdə tutulmuş əməliyyatlar istisna olmaqla) ödəniş xidməti şəbəkəsində aparılmış bütün əməliyyatları əhatə edir.

5.1.2.2.1.4. "Ölkəxarici əməliyyatlar" – bu hissə operatorun xidmət göstərdiyi iştirakçılar tərəfindən emissiya edilmiş ödəniş kartları ilə ölkə xaricində və xarici ödəniş xidməti təchizatçılarının ödəniş xidməti şəbəkəsində (Azərbaycanda aldığı lisenziya

əsasında fəaliyyət göstərən xarici ödəniş xidməti təchizatçısının yerli filialı istisna olmaqla) aparılmış bütün əməliyyatları əhatə edir.

5.1.3. "Operatorun xidmət göstərdiyi iştirakçıların emissiya etdiyi ödəniş kartları vasitəsilə aparılan maliyyə və qeyri-maliyyə əməliyyatlarının ödəniş xidməti təchizatçıları üzrə əks etdirilməsi haqqında statistik hesabat" formasında (Forma ÖSO-3 – Əlavə №30) hesabat dövrü ərzində operatorun xidmət göstərdiyi iştirakçıları qeyd edilməklə onlar tərəfindən emissiya edilmiş ödəniş kartları ilə aparılan avtorizasiya edilmiş uğurlu və uğursuz maliyyə və qeyri-maliyyə əməliyyatlarının sayı və həcmi əks etdirilir:

5.1.3.1. operatorun xidmət göstərdiyi iştirakçıların emissiya etdiyi ödəniş kartları ilə aparılan avtorizasiya edilmiş əməliyyatlar maliyyə və qeyri-maliyyə əməliyyatları üzrə təsnifləşdirilir.

5.1.4. "Operatorun xidmət göstərdiyi iştirakçıların emissiya etdiyi ödəniş kartları üzrə və onların ödəniş xidməti şəbəkəsində baş vermiş fırıldaqçılıq əməliyyatları haqqında statistik hesabat" formasında (Forma ÖS-ÖSO-4 – Əlavə №31) hesabat dövrü ərzində operatorun xidmət göstərdiyi iştirakçıların emissiya etdiyi ödəniş kartları üzrə və onlara məxsus ödəniş xidməti şəbəkəsində operator tərəfindən xidmət olunmayan təşkilatların emissiya etdiyi ödəniş kartları ilə baş vermiş fırıldaqçılıq əməliyyatları üzrə göstəricilər əks etdirilir:

5.1.4.1. hesabat formasının "Operatorun xidmət göstərdiyi iştirakçıların ödəniş kartları ilə baş vermiş fırıldaqçılıq əməliyyatları üzrə" hissəsində hesabat dövrü ərzində ölkədaxili və ölkə xaricində baş vermiş fırıldaqçılıq halları üzrə ödəniş kartlarının sayı, əməliyyatların sayı və həcmi, o cümlədən iştirakçıların özlərinə məxsus ödəniş xidməti şəbəkəsində baş vermiş fırıldaqçılıq əməliyyatlarının sayı və həcmi qeyd olunur;

5.1.4.2. hesabat formasının "Operatorun xidmət göstərdiyi iştirakçılara məxsus ödəniş xidməti şəbəkəsində operatorun xidmət göstərmədiyi təşkilatların emissiya etdiyi ödəniş kartları ilə baş vermiş fırıldaqçılıq əməliyyatları üzrə" hissəsində hesabat dövrü ərzində operatorun xidmət göstərdiyi iştirakçılara məxsus ödəniş xidməti şəbəkəsində digər rezident və qeyri-rezident təşkilatların emissiya etdiyi ödəniş kartları ilə baş vermiş fırıldaqçılıq əməliyyatlarının sayı və həcmi əks olunur;

5.1.4.3. Fırıldaqçılıq halının statusu aşağıdakı təsnifata ayrılır:

5.1.4.3.1. Aşkarlanmış fırıldaqçılıq əməliyyatları (detection) – operatorun sistemində müəyyənləşdirilmiş qaydalara əsasən şübhəli olaraq təsnifləşdirilən əməliyyatlar;

5.1.4.3.2. Qarşısı alınmış fırıldaqçılıq əməliyyatları (prevention) – operatorun sistemində müəyyənləşdirilmiş qaydalara əsasən fırıldaqçılıq əməliyyatı kimi müəyyən edilmiş və qarşısı alınmış əməliyyatlar;

5.1.4.3.3. Təsdiqlənmiş fırıldaqçılıq halı (fraud case) – sahibinin razılığı və ya icazəsi olmadan ona məxsus hesab, ödəniş kartı və ya fərdi məlumatlarından istifadə edilməklə aparılmış və fırıldaqçılıq halı olaraq qəbul edilmiş əməliyyat.

5.1.5. "Operatorun xidmət göstərdiyi iştirakçıların emissiya etdiyi ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə mübahisəli hallar haqqında statistik hesabat" formasında (Forma ÖS-ÖSO-5 – Əlavə №32) hesabat dövrü ərzində operatorun xidmət göstərdiyi iştirakçıların

emissiya etdiyi ödəniş kartları ilə ölkə daxilində və ölkə xaricində aparılmış əməliyyatlar üzrə mübahisəli halların sayı və həcmi, o cümlədən operatorun xidmət göstərdiyi iştirakçılara məxsus ödəniş xidməti şəbəkəsində aparılan əməliyyatlar üzrə mübahisəli halların sayı və həcmi əks etdirilir;

5.1.5.1. Operatorun xidmət göstərdiyi iştirakçılar tərəfindən emissiya edilmiş ödəniş kartları ilə aparılan əməliyyatlar mübahisəli halların səbəbi (chargeback), yenidən açılmış mübahisəli halların səbəbi (representment/second presentment), müştərilərin xeyrinə həll edilmiş mübahisəli hallar, müştərilərin əleyhinə həll edilmiş mübahisəli hallar üzrə təsnifləşdirilir.

5.1.5.1.1. Mübahisəli hallar aşağıdakılar üzrə təsnifləşdirilir:

5.1.5.1.1.1. Təmin edilməmiş xidmətlər və ya əldə edilməmiş mallar;

5.1.5.1.1.2. Nağd pulun alınmaması və ya hesaba mədaxil olunmaması;

5.1.5.1.1.3. Uyğun gəlməyən kart/hesab nömrəsi;

5.1.5.1.1.4. Kartın fiziki olaraq təqdim edilmədiyi mühitdə fırıldaqçılıq;

5.1.5.1.1.5. Kartın fiziki olaraq təqdim edildiyi mühitdə fırıldaqçılıq;

5.1.5.1.1.6. Avtorizasiyadan imtina;

5.1.5.1.1.7. Avtorizasiyanın yoxluğu;

5.1.5.1.1.8. Gec təqdimetmə;

5.1.5.1.1.9. Yanlış valyuta və ya əməliyyat kodu;

5.1.5.1.1.10. Dublikat emal;

5.1.5.1.1.11. Təsvir edildiyi kimi olmayan və ya qüsurlu mal/xidmət;

5.1.5.1.1.12. Vəsaitin kreditləşməsinin icra edilməməsi;

5.1.5.1.1.13. Ödənişin başqa vasitələrin köməyi ilə aparılması.

5.2. ÖSO-2 və ÖSO-3 hesabat formalarında manat, ABŞ dolları, avroda əməliyyatlar müvafiq valyuta təsnifatlarında, ABŞ dolları, avro və manatdan başqa valyutalar "Digər" təsnifatında əks etdirilir. Xarici valyutada əməliyyatlar bu Təlimatın 8.7-ci bəndinə əsasən manat ekvivalentində qeyd edilir.

5.3. Hesabat formalarında ödəniş alətləri üzrə göstəricilərdə ödəniş kartları və elektron pul, həmçinin digər ödəniş alətləri nəzərə alınmalıdır.

## 6. BOKT-lər tərəfindən təqdim olunan hesabatların məzmunu və tərtib edilməsi

6.1. BOKT-lərin ödəniş statistikası üzrə hesabatı (bundan sonra – ÖS-BOKT hesabatı) aşağıdakı statistik formalardan ibarətdir:

6.1.1. "BOKT-nin emissiya etdiyi kredit kartları vasitəsilə vəsaitin məxarici üzrə aparılan əməliyyatlar haqqında statistik hesabat" formasında (Forma ÖS-BOKT-1 – Əlavə №33) hesabat dövrü üzrə BOKT-nin emissiya etdiyi kredit kartlarından istifadə etməklə ödəniş xidməti şəbəkəsi vasitəsilə ölkədaxili və ölkə xaricində aparılan əməliyyatların hesabat dövrü üzrə sayı və həcmi haqqında məlumatlar əks olunur;

6.1.1.1. hesabat formasında ölkə xaricində əməliyyatların sayı və həcmi ödəniş terminalları vasitəsilə nağd pulun çıxarılması, ödənişlərin həyata keçirilməsi, internet səhifə,

mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatlarının müvafiq olaraq sayı və həcminin cəmindən ibarətdir;

6.1.1.2. hesabat formasında ölkə xaricində aparılan əməliyyatların sayı və həcmi ödəniş terminalları (bankomatlar, POS-terminallar və özünəxidmət terminalları) vasitəsilə nağd pulun çıxarılması, ödənişlərin həyata keçirilməsi, internet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatlarından ibarətdir;

6.1.1.3. hesabat formasında ölkə daxilində əməliyyatların sayı və həcmi ölkədaxili ödəniş xidməti şəbəkəsi vasitəsilə aparılan əməliyyatların müvafiq olaraq sayı və həcminin cəmindən ibarətdir;

6.1.1.4. bankomatlar və POS-terminallar üzrə əməliyyatlar nağd (nağd pulun çıxarılması) və nağdsız (ödənişlərin həyata keçirilməsi) əməliyyatlar üzrə təsnifləşdirilir.

6.1.1.5. hesabat formasının "İnternet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatları" hissəsi elektron ticarət vasitəsilə mal, iş və ya xidmətlərin dəyərinin ödənilməsi və internet səhifə, mobil tətbiq vasitəsilə aparılan ödəniş kartına vəsaitin köçürülməsi, elektron pula vəsaitin köçürülməsi və digər ödəniş hesabına və ya alətinə vəsaitin köçürülməsi üzrə təsnifləşdirilir;

6.1.1.6. özünəxidmət terminalları üzrə əməliyyatlar ödənişlərin həyata keçirilməsi, ödəniş kartına vəsaitin köçürülməsi, elektron pula vəsaitin köçürülməsi və digər ödəniş hesabına və ya alətinə vəsaitin köçürülməsi üzrə təsnifləşdirilir.

6.1.2. "BOKT-nin emissiya etdiyi kredit kartlarının strukturu və dövriyyəsi haqqında statistik hesabat" forması (Forma ÖS-BOKT-2 – Əlavə №34) "BOKT-nin emissiya etdiyi kredit kartlarının strukturu haqqında statistik hesabat" (ÖS-BOKT-2.1) və "BOKT-nin emissiya etdiyi kredit kartlarının dövriyyəsi haqqında statistik hesabat" (ÖS-BOKT-2.2) cədvəllərindən ibarətdir:

6.1.2.1. "BOKT-nin emissiya etdiyi kredit kartlarının strukturu haqqında statistik hesabat" cədvəlində (ÖS-BOKT-2.1) dövrün sonuna ödəniş sistemləri üzrə kredit kartlarının və istifadəçilərinin sayı qeyd olunur;

6.1.2.1.1. cədvəldə kredit kartları ödəniş sistemləri üzrə təsnifləşdirilir;

6.1.2.1.1.1. Visa və Mastercard ödəniş sistemləri üzrə kredit kartları premial, adi və digər olmaqla təsnifləşdirilir;

6.1.2.1.1.2. "ondan Visa Business" və "ondan Mastercard Business" sətirlərinə həm premial, həm də adi biznes kredit kartları daxil edilir;

6.1.2.2. "BOKT-nin emissiya etdiyi kredit kartlarının dövriyyəsi haqqında statistik hesabat" cədvəlində (ÖS-BOKT-2.2) hesabat dövrünün əvvəlinə dövriyyədə olan, hesabat dövrü ərzində dövriyyəyə buraxılmış, hesabat dövrü ərzində dövriyyədən çıxarılmış, hesabat dövrünün sonuna dövriyyədə olan, hesabat dövründə istifadə edilməyən (hesabat dövrü ərzində istifadəçisi tərəfindən heç bir ödəniş və nağd pulun çıxarılması əməliyyatı aparılmayan kredit kartı), hesabat dövrü ərzində yalnız nağdlaşdırma əməliyyatı aparılan kredit kartlarının və istifadəçilərinin sayı qeyd olunur.

6.1.3. "BOKT-nin kredit kartı istifadəçisi olan fiziki şəxs müştəriləri haqqında statistik hesabat" (Forma ÖS-BOKT-3 – Əlavə №35) "BOKT-nin fiziki şəxs müştəriləri haqqında

statistik hesabat" (ÖS-BOKT-3.1) və "BOKT-nin FİN məlumatları əsasında eyniləşdirilən fiziki şəxs müştəriləri haqqında statistik hesabat" (ÖS-BOKT-3.2) cədvəllərindən ibarətdir:

6.1.3.1. "BOKT-nin fiziki şəxs müştəriləri haqqında statistik hesabat" (ÖS-BOKT-3.1) formasında kredit kartı istifadəçiləri eyniləşdirmə üsulundan asılı olaraq, FİN məlumatları əsasında eyniləşdirilən rezident fiziki şəxslər, FİN-i olmadıqda şəxsiyyəti təsdiq edən sənədin nömrəsi əsasında eyniləşdirilən rezident fiziki şəxslər və qeyri-rezident fiziki şəxslərin sayı üzrə təsnifləşdirilir;

6.1.3.2. "BOKT-nin FİN məlumatları əsasında eyniləşdirilən fiziki şəxs müştəriləri haqqında statistik hesabat" formasında (ÖS-BOKT-3.2) fiziki şəxs olan kredit kartı istifadəçilərinin FİN-nin (böyük hərflərdən ibarət olmalıdır) "SHA-2, 256bit" biristiqamətli təhlükəsiz heş alqoritmi əsasında çevrilmiş (heşlənmiş) unikal heş (64 simvol) məlumatı əks etdirilir. FİN-ə bağlı bir və ya bir neçə kredit kartı üzrə hesabat dövrü ərzində ümumilikdə azı 3 (üç) məxaric əməliyyatı (nağd və ya nağdsız formada) aparılmışdırsa, FİN aktiv hesab olunur və müvafiq xanada "A" işarəsi qeyd edilir, aktiv hesab olunmayan FİN üzrə "P" işarəsi qeyd edilir;

6.1.3.2.1. "Kredit tələbi üzrə qalıq" hissəsində hesabat dövrünün sonuncu təqvim gününə kredit kartına bağlı kredit müqaviləsi üzrə kredit məbləği və kredit üzrə tətbiq edilən faizlər və (və ya) müqavilədə göstərilən digər ödənişlər üzrə qalıq məbləği qeyd edilir. Bir neçə kredit kartı olduqda hər bir kredit kartı ilə bağlı kredit tələbi üzrə qalıqlar cəmlənərək qeyd olunur.

6.1.3.3. "BOKT-nin hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxs müştəriləri haqqında statistik hesabat" formasında (Forma ÖS-BOKT-4 – Əlavə №36) hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərin VÖEN-i haqda məlumat əks etdirilir. VÖEN-ə bağlı hesab üzrə qüvvədə olan kredit tələbi varsa, VÖEN aktiv hesab olunur və müvafiq xanada "A" işarəsi qeyd edilir, aktiv hesab olunmayan VÖEN üzrə "P" işarəsi qeyd edilir.

6.2. BOKT-lərin fırıldaqçılıq əməliyyatları üzrə təqdim etdikləri hesabatların məzmunu və tərtib edilməsi qaydası bu Təlimatın 7.1.2-ci yarımbəndində müəyyənləşdirilir.

## 7. Ödəniş xidməti təchizatçıları tərəfindən fırıldaqçılıq əməliyyatları üzrə təqdim olunan hesabatların məzmunu və tərtib edilməsi

7.1. Fırıldaqçılıq əməliyyatları üzrə təqdim olunan hesabatlar (bundan sonra – ÖS-F hesabatı) aşağıdakı statistik formalardan ibarətdir:

7.1.1. "Statistik vahidin müştəriləri tərəfindən həyata keçirilən kredit köçürmələri və birbaşa debitləşmələr üzrə baş vermiş fırıldaqçılıq əməliyyatları haqqında statistik hesabat" formasında (Forma ÖS-F-1 – Əlavə №37) statistik vahidin müştəriləri tərəfindən həyata keçirilən kredit köçürmələri və birbaşa debitləşmələr üzrə baş vermiş fırıldaqçılıq əməliyyatları əks olunur;

7.1.1.1. statistik vahidin müştəriləri tərəfindən həyata keçirilən kredit köçürmələri və birbaşa debitləşmələr üzrə baş vermiş fırıldaqçılıq əməliyyatları üzrə ödəniş hesablarının sayı, əməliyyatların sayı və həcmi qeyd olunur;

7.1.1.2. kredit köçürmələri və birbaşa debitləşmələr üzrə baş vermiş fırıldaqçılıq əməliyyatları kağız daşıyıcılar və elektron şəbəkə və ya cihazlar vasitəsilə həyata keçirilən əməliyyatlar üzrə təsnifləşdirilir;

7.1.1.3. elektron şəbəkə və ya cihazlar vasitəsilə aparılan kredit köçürmələri üzrə baş vermiş fırıldaqçılıq əməliyyatları gücləndirilmiş müştəri autentifikasiyasının (GMA) tətbiqi edildiyi və edilmədiyi əməliyyatlar üzrə təsnifləşdirilir.

7.1.2. "Statistik vahidin emissiya etdiyi ödəniş kartları ilə və onun ödəniş xidməti şəbəkəsində baş vermiş fırıldaqçılıq əməliyyatları haqqında statistik hesabat" formasında (Forma ÖS-F-2 – Əlavə №38) statistik vahidin emissiya etdiyi ödəniş kartları və statistik vahidə məxsus ödəniş xidməti şəbəkəsində digər ödəniş xidməti təchizatçılarının emissiya etdiyi ödəniş kartları ilə baş vermiş ölkədaxili və ölkəxarici fırıldaqçılıq əməliyyatları əks olunur:

7.1.2.1. statistik vahidin emissiya etdiyi ödəniş kartları ilə baş vermiş fırıldaqçılıq əməliyyatları üzrə ödəniş kartlarının sayı, əməliyyatların ümumi sayı və həcmi, həmçinin özünə məxsus ödəniş xidməti şəbəkəsində baş vermiş fırıldaqçılıq əməliyyatlarının sayı və həcmi əks olunur;

7.1.2.2. statistik vahidə məxsus ödəniş xidməti şəbəkəsində digər ödəniş xidməti təchizatçılarının (rezident və qeyri-rezident) emissiya etdiyi ödəniş kartları ilə baş vermiş fırıldaqçılıq əməliyyatlarının sayı və həcmi əks olunur;

7.1.2.3. ölkədaxili və ölkəxarici fırıldaqçılıq əməliyyatları aşağıdakı kateqoriyalardan ibarətdir:

7.1.2.3.1. itmiş/oğurlanmış ödəniş kartları (lost or stolen cards) ilə əməliyyatlar;

7.1.2.3.2. hesabın və ya kart məlumatlarının ələ keçirilməsi (account takeover, fraudulent application) ilə əməliyyatlar;

7.1.2.3.3. saxta/surəti çıxarılmış ödəniş kartları (counterfeit cards) ilə əməliyyatlar;

7.1.2.3.4. kart təqdim edilmədən (Card not present) aparılmış əməliyyatlar;

7.1.2.3.5. təsərrüfat subyekti tərəfindən həyata keçirilən (Collusive Merchant & Multiple Imprint) əməliyyatlar;

7.1.2.3.6. digər fırıldaqçılıq əməliyyatları.

7.1.2.4. ölkədaxili və ölkəxarici fırıldaqçılıq əməliyyatları fırıldaqçılıq halının baş verdiyi internet səhifə, mobil tətbiq, digər elektron şəbəkə və ödəniş avadanlığı üzrə təsnifləşdirilir;

7.1.2.5. ölkədaxili və ölkəxarici fırıldaqçılıq əməliyyatları ödəniş sistemləri (Visa, Mastercard, lokal və digər) üzrə təsnifləşdirilir;

7.1.2.6. ölkədaxili və ölkəxarici fırıldaqçılıq əməliyyatları GMA-nın tətbiqi edildiyi və edilmədiyi əməliyyatlar üzrə təsnifləşdirilir;

7.1.2.7. hesabat formasında fırıldaqçılıq əməliyyatlarının qeydiyyatı baş verdiyi tarix üzrə deyil, fırıldaqçılıq əməliyyatının olması təsdiq olunduğu tarix üzrə aparılmalıdır.

Məsələn, 5 yanvar tarixində baş verən əməliyyatın fırıldaqçılıq əməliyyatı olması yanvar ayının sonunadək təsdiqləndikdə əməliyyat yanvar ayı üzrə qeyd edilməli, yanvar ayından sonra təsdiqləndikdə isə təsdiqləndiyi ay üzrə qeyd edilməlidir.

7.1.3. "Statistik vahidin emissiya etdiyi elektron pul ilə və onun ödəniş xidməti şəbəkəsində baş vermiş fırıldaqçılıq əməliyyatları haqqında statistik hesabat" formasında (Forma ÖS-F-3 – Əlavə №39) statistik vahidin emissiya etdiyi kart əsaslı və kart əsaslı olmayan (şəbəkə əsaslı) elektron pul ilə və statistik vahidə məxsus ödəniş xidməti şəbəkəsində digər ödəniş xidməti təchizatçılarının (rezident və qeyri-rezident) emissiya etdiyi elektron pul ilə baş vermiş ölkədaxili və ölkəxarici fırıldaqçılıq əməliyyatları əks olunur:

7.1.3.1. statistik vahidin emissiya etdiyi elektron pul ilə baş vermiş fırıldaqçılıq əməliyyatları üzrə ödəniş hesablarının sayı, əməliyyatların ümumi sayı və həcmi, həmçinin özünə məxsus ödəniş xidməti şəbəkəsində baş vermiş fırıldaqçılıq əməliyyatlarının sayı və həcmi əks olunur;

7.1.3.2. statistik vahidə məxsus ödəniş xidməti şəbəkəsində digər ödəniş xidməti təchizatçılarının emissiya etdiyi elektron pul ilə baş vermiş fırıldaqçılıq əməliyyatlarının sayı və həcmi əks olunur;

7.1.3.3. ölkədaxili və ölkəxarici fırıldaqçılıq əməliyyatları aşağıdakı kateqoriyalardan ibarətdir:

7.1.3.3.1. hesab və ya elektron pul məlumatlarının ələ keçirilməsi (account takeover, fraudulent application) ilə əməliyyatlar;

7.1.3.3.2. digər fırıldaqçılıq əməliyyatları.

7.1.3.4. ölkədaxili və ölkəxarici fırıldaqçılıq əməliyyatları fırıldaqçılıq halının baş verdiyi internet səhifə, mobil tətbiq, digər elektron şəbəkə və ödəniş avadanlığı üzrə təsnifləşdirilir;

7.1.3.5. ölkədaxili və ölkəxarici fırıldaqçılıq əməliyyatları GMA-nın tətbiqi edildiyi və edilmədiyi əməliyyatlar üzrə təsnifləşdirilir;

7.1.3.6. hesabat formasında fırıldaqçılıq əməliyyatlarının qeydiyyatı baş verdiyi tarix üzrə deyil, fırıldaqçılıq əməliyyatının olması təsdiq olunduğu tarix üzrə aparılmalıdır. Məsələn, 5 yanvar tarixində baş verən əməliyyatın fırıldaqçılıq əməliyyatı olması yanvar ayının sonunadək təsdiqləndikdə əməliyyat yanvar ayı üzrə qeyd edilməli, yanvar ayından sonra təsdiqləndikdə isə təsdiqləndiyi ay üzrə qeyd edilməlidir.

7.1.4. "Statistik vahid tərəfindən istifadə olunan pul köçürmə sistemləri vasitəsilə həyata keçirilən əməliyyatlar üzrə baş vermiş fırıldaqçılıq əməliyyatları haqqında statistik hesabat" formasında (Forma ÖS-F-4 – Əlavə №40) statistik vahid tərəfindən istifadə olunan pul köçürmə sistemləri vasitəsilə həyata keçirilən ölkədaxili və ölkəxarici əməliyyatlar üzrə baş vermiş fırıldaqçılıq əməliyyatlarının sayı və həcmi əks olunur.

## 8. Hesabatın təqdim olunması

8.1. Banklar tərəfindən ÖS-Bank-1; ÖS-Bank-2; ÖS-Bank-3; ÖS-Bank-4; ÖS-Bank-5; ÖS-Bank-6; ÖS-Bank-7; ÖS-Bank-8; ÖS-Bank-9; ÖS-Bank-10; ÖS-Bank-11; ÖS-Bank-12; ÖS-F-1; ÖS-F-2; ÖS-F-3; ÖS-F-4 hesabat formaları aylıq əsasda elektron formada hesabat dövründən sonrakı ayın 7 (yeddi) iş günü, ÖS-Bank-13; ÖS-Bank-14; ÖS-Bank-15; ÖS-Bank-16; ÖS-Bank-17 hesabat formaları isə rüblük əsasda elektron formada hesabat dövründən sonrakı ayın 10 (on) iş günü ərzində Mərkəzi Banka təqdim edilməlidir.

8.2. Ödəniş təşkilatı tərəfindən ÖS-ÖXT-1 və ÖS-ÖXT-4 hesabat formaları istisna olmaqla bu Təlimatın 4-cü hissəsində müəyyənləşdirilən digər bütün hesabat formaları Mərkəzi Banka təqdim edilməlidir. ÖS-ÖXT-2; ÖS-ÖXT-3; ÖS-ÖXT-5; ÖS-ÖXT-6; ÖS-ÖXT-7; ÖS-ÖXT-8; ÖS-F-1; ÖS-F-4 hesabat formaları aylıq əsasda elektron formada hesabat dövründən sonrakı ayın 7 (yeddi) iş günü ərzində, ÖS-ÖXT-9; ÖS-ÖXT-10 hesabat formaları isə rüblük əsasda elektron formada hesabat dövründən sonrakı ayın 10 (on) iş günü ərzində təqdim edilməlidir.

8.3. Yalnız elektron pulun emissiyası və elektron pul ilə ödəniş əməliyyatlarının icrası xidmətini göstərən elektron pul təşkilatı tərəfindən ÖS-ÖXT-5 hesabat forması istisna olmaqla, bu Təlimatın 4-cü hissəsində müəyyənləşdirilən digər bütün hesabat formaları Mərkəzi Banka təqdim edilməlidir. ÖS-ÖXT-1; ÖS-ÖXT-2; ÖS-ÖXT-3; ÖS-ÖXT-4; ÖS-ÖXT-6; ÖS-ÖXT-7; ÖS-ÖXT-8; ÖS-F-1; ÖS-F-2; ÖS-F-3; ÖS-F-4 hesabat formaları aylıq əsasda elektron formada hesabat dövründən sonrakı ayın 7 (yeddi) iş günü ərzində, ÖS-ÖXT-9; ÖS-ÖXT-10 hesabat formaları isə rüblük əsasda elektron formada hesabat dövründən sonrakı ayın 10 (on) iş günü ərzində təqdim edilməlidir.

8.4. Elektron pul təşkilatı tərəfindən elektron pulun emissiyası və elektron pul ilə ödəniş əməliyyatlarının icrası ilə yanaşı digər ödəniş xidmətləri göstərildikdə, bu Təlimatın 4-cü hissəsində müəyyənləşdirilən bütün hesabat formaları elektron formada Mərkəzi Banka təqdim edilməlidir. ÖS-ÖXT-1; ÖS-ÖXT-2; ÖS-ÖXT-3; ÖS-ÖXT-4; ÖS-ÖXT-5; ÖS-ÖXT-6; ÖS-ÖXT-7; ÖS-ÖXT-8; ÖS-F-1; ÖS-F-2; ÖS-F-3; ÖS-F-4 hesabat formaları aylıq əsasda, hesabat dövründən sonrakı ayın 7 (yeddi) iş günü ərzində, ÖS-ÖXT-9; ÖS-ÖXT-10 hesabat formaları isə rüblük əsasda hesabat dövründən sonrakı ayın 10 (on) iş günü ərzində təqdim edilməlidir.

8.5. Operatorlar tərəfindən bu Təlimatın 5-ci hissəsində müəyyənləşdirilən hesabat formaları aylıq əsasda olmaqla elektron formada hesabat dövründən sonrakı ayın 7 (yeddi) iş günü ərzində Mərkəzi Banka təqdim edilir.

8.6. BOKT-lər tərəfindən bu Təlimatın 6-cı hissəsində müəyyənləşdirilən, ÖS-F-1 və ÖS-F-2 hesabat formaları aylıq əsasda elektron formada hesabat dövründən sonrakı ayın 7 (yeddi) iş günü ərzində Mərkəzi Banka təqdim edilir.

8.7. Bütün hesabat formalarında xarici valyuta ilə aparılmış əməliyyatlar əməliyyatın aparıldığı gün üçün Mərkəzi Bankın rəsmi məzənnəsi üzrə manat ekvivalentində əks olunur. Əməliyyatlar Mərkəzi Bankın rəsmi məzənnəsini elan etmədiyi xarici valyutada olduqda həmin valyutanın ABŞ dollarına rəsmi məzənnəsi əsasında hesablanmış çarpaz məzənnə üzrə manat ekvivalentində əks olunmalıdır.

8.8. Bütün hesabat formalarında ödəniş kartında olan vəsait manatdadırsa, xarici valyutada vəsaitin nağdlaşdırılması və ya xarici valyutada ödəniş əməliyyatları ümumi əməliyyatlarda nəzərə alınmaqla "ondan xarici valyutada" göstəricilərində əks olunmamalıdır.

8.9. Bütün hesabat formalarında ödəniş kartında olan vəsait xarici valyutadadırsa, manatda vəsaitin nağdlaşdırılması və ya manatda ödəniş əməliyyatları ümumi əməliyyatlarda nəzərə alınmaqla yanaşı "ondan xarici valyutada" göstəricilərində manat ekvivalentində əks olunmalıdır.

8.10. Bütün hesabat formalarında "İnternet səhifə, mobil tətbiq və digər elektron şəbəkə vasitəsilə aparılan ödəniş əməliyyatları" ödənişi qəbul edən təsərrüfat subyektinin qeydiyyatdan keçdiyi ölkə Azərbaycan Respublikasıdırsa ölkədaxili, xarici ölkədirsə, ölkəxarici kimi əks olunur. Xarici ödəniş xidməti təchizatçısının emissiya etdiyi ödəniş kartına köçürmələr ölkəxarici əməliyyat kimi nəzərə alınır. Bu əməliyyatların ölkədaxili və ölkəxarici üzrə təsnifləşdirilməsi ödənişi həyata keçirən ödəniş xidməti istifadəçisinin coğrafi yerləşməsinə əsaslanmamalıdır.

8.11. Hesabat formalarında POS-terminallar üzrə göstəricilərdə mobil POS-terminallar da nəzərə alınmalıdır.

8.12. Hesabat formalarında ödəniş kartları üzrə göstəricilərdə ödəniş kartları kimi virtual kartlar da nəzərə alınmalıdır.

8.13. Hesabat formalarında göstəricilərin sayı və həcmi nominalla göstərilməlidir.

8.14. Hesabat formaları statistik vahidin bütün bölmələri üzrə icmallaşdırılaraq Mərkəzi Banka təqdim edilməlidir.

8.15. Əməliyyat baş verməyən hallarda hesabat formasında müvafiq göstərici üzrə xana boş saxlanılır və ya 0 (sıfır) qeyd olunur.

8.16. Hesabat statistik vahidin icra orqanının rəhbərinin, üzvünün, baş mühasibin (bu vəzifəni icra edən şəxsin), yaxud hesabatın təqdim olunmasına məsul olan struktur bölmə rəhbərinin elektron imzası ilə təsdiq edilir.

## 9. Yekun müddəalar

9.1. Banklar tərəfindən ÖS-Bank-14 və ÖS-Bank-15 hesabat formaları 2025-ci ilin ikinci rübü, ÖS-Bank-16 və ÖS-Bank-17 hesabat formaları 2025-ci ilin üçüncü rübü, ÖS-F-1 və ÖS-F-4 hesabat formaları 2025-ci ilin mart ayı və ÖS-F-3 hesabat forması 2025-ci ilin iyun ayının nəticələri üzrə hesabatlılıqdan başlayaraq təqdim edilməlidir.

9.2. Ödəniş təşkilatı tərəfindən ÖS-ÖXT-2 hesabat forması 2025-ci ilin mart ayı, ÖS-ÖXT-9 və ÖS-ÖXT-10 hesabat formaları 2025-ci ilin üçüncü rübü, ÖS-F-1 və ÖS-F-4 hesabat formaları 2025-ci ilin mart ayının nəticələri üzrə hesabatlılıqdan başlayaraq təqdim edilməlidir.

9.3. Yalnız elektron pulun emissiyası və elektron pul ilə ödəniş əməliyyatlarının icrası xidmətini göstərən elektron pul təşkilatı tərəfindən ÖS-ÖXT-2 və ÖS-ÖXT-4 hesabat formaları 2025-ci ilin mart ayı, ÖS-ÖXT-9 və ÖS-ÖXT-10 hesabat formaları 2025-ci ilin

üçüncü rübü, ÖS-F-1 və ÖS-F-4 hesabat formaları 2025-ci ilin mart ayı və ÖS-F-3 hesabat forması 2025-ci ilin iyun ayının nəticələri üzrə hesabatlılıqdan başlayaraq təqdim edilməlidir.

9.4. Elektron pulun emissiyası və elektron pul ilə ödəniş əməliyyatlarının icrası ilə yanaşı digər ödəniş xidmətləri göstərən elektron pul təşkilatı tərəfindən ÖS-ÖXT-2 və ÖS-ÖXT-4 hesabat formaları 2025-ci ilin mart ayı, ÖS-ÖXT-9 və ÖS-ÖXT-10 hesabat formaları 2025-ci ilin üçüncü rübü, ÖS-F-1 və ÖS-F-4 hesabat formaları 2025-ci ilin mart ayı və ÖS-F-3 hesabat forması 2025-ci ilin iyun ayının nəticələri üzrə hesabatlılıqdan başlayaraq təqdim edilməlidir.

9.5. Operatorlar tərəfindən bu Təlimatın 5-ci hissəsində müəyyənləşdirilən hesabat formaları 2025-ci ilin mart ayının nəticələri üzrə hesabatlılıqdan başlayaraq təqdim edilməlidir.

